HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 48 (839) ■ 7 dekabr 2016 www.vergiler.az Qiymәti: 55 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

## Prezident İlham Əliyevin Zərdab, Tərtər və Ağdam rayonlarına səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 2-də Zərdab rayonuna səfərə gəliblər. Onlara son illərdə Zərdabda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verilib.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Zərdab Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmirdən sonra istifadəyə verilən yeni binasında yaradılan şəraitlə tanış olublar. Prezident İlham Əliyev Mərkəzi Rayon Xəstəxanasının istifadəyə verilməsini ölkəmizdə sosial siyasətin uğurla həyata keçirilməsinin nümunəsi kimi qiymətləndirib.

Dekabrın 3-də Tərtər rayonuna gələn dövlət başçısına rayonun sosial-iqtisadi göstəriciləri və görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib. Bildirilib ki, bu il rayonun kənd təsərrüfatının müxtəlif sahələrində mühüm dəyişikliklər olub. Pambıq, taxıl, barama, şəkər çuğunduru və digər məhsulların istehsalı xeyli artıb.

Dövlət başçısı rayonun Sarıcalı kəndində Tərtər çayı üzərində inşa edilmiş yeni körpünün açılışında, həmçinin «Tərtər şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin başa çatması münasibətilə keçirilən tədbirdə iştirak edib. Prezident İlham ictimaiyyətin nümayəndələri ilə görüşüb.

Azərbaycan Prezidenti və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə Tərtərdə inşa edilmiş Uşaq-Gənclər Şahmat Məktəbinin və Yeni Azərbaycan Partiyası (YAP) Tərtər rayon təşkilatının yeni inzibati binasının, Tərtər şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimlərində də iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Tərtərdə yeni inşa olunmuş «N» saylı hərbi hissədə olub. Ali Baş Komandan İlham Əliyevə bildirilib ki, hərbi hissənin ərazisində qərargah, iki kazarma, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana yaradılıb. Hərbçilərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün burada idman şəhərciyi də salınıb. Bundan başqa, hərbi hissənin ərazisində müxtəlif növ texnika və avtomobillərin saxlanıldığı park da var. Burada hərbi hissə növbətçisi, istirahət və çay otaqları, rabitə qovşağı və digər zəruri otaqlar var.



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Tərtərə səfərlərini başa çatdıraraq Ağdam rayonuna gəliblər. Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsində ucaldılmış abidəsinin önünə gül dəstələri qoyublar. Prezident İlham Əliyevə son vaxtlar rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verilib. Bildirilib ki, Ağdam rayonunda da geniş bərpa və yenidənqurma işləri davam etdirilir. Sosial təyinatlı layihələrin icrası diqqət mərkəzində saxlanılır, yol infrastrukturunun yaradılması ilə bağlı tədbirlər görülür. Bundan əlavə, rayonun müxtəlif kəndlərində həm məktəb, həm də uşaq bağçalarının tikintisi və yenidən qurulması həyata keçirilir.

Azərbaycan Prezidenti və xanımı Mehriban Əliyeva dekabrın 3-də Ağdam rayonunun Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzinin və qəsəbədə yeni inşa edilmiş Bayraq Muzeyinin açılışında iştirak edib, Ağdam Muğam Mərkəzinin təməlqoyma mərasimində iştirak ediblər. Dövlətimizin başçısı Muğam Mərkəzinin təməlini qoyub.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağdam rayonuna səfərləri çərçivəsində Mahrızlı kəndinə gələrək evlərdə yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, hərbi əməliyyatlar zamanı Ağdam rayonunda ümumilikdə 743 ev dağıdılıb. Ermənistan silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında dövlətimizin başçısının müvafiq sərəncamına və Prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına görülən tədbirlər nəticəsində 5-i üçotaqlı, 3-ü dördotaqlı olmaqla 8 ev yenidən tikilib, 15 ev tamamilə bərpa olunub, 27 ev əsaslı təmir edilib, 693 evdə cari təmir işləri görülüb. Bundan əlavə, bir məktəb və iki uşaq bağçasında əsaslı təmir işləri həyata keçirilib.

Sonra Azərbaycan Prezidenti və xanımı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər. Dövlətimizin başçısı görüşdə çıxış edib. Bildirib ki, aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir: «Azərbaycan dövləti, Azərbaycan xalqı, Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi - həm vətəndaşlar, həm hərbçilər. Hərbçilər döyüş meydanlarında qəhrəmanlıq, şücaət göstərmişlər, düşmənə layiqli cavab vermişlər, işğal edilmiş ərazilərimizin bir hissəsini azad etmişlər. Vətəndaşlar isə bax burada, bu yerdə, o vaxt dağılmış bu evin önündə möhkəm dayanaraq düşmənə Azərbaycan xalqının iradəsini göstərdi. Göstərdi ki, Azərbaycan xalqı heç nədən qorxmur. Azərbaycan xalqı öz vətənində yaşayır və yaşayacaq. Cəbhəyanı bölgələrdə yaşayan vətəndaşların bir nəfəri yerindən tərpənmədi. Ermənilər işğal edilmiş torpaqlarımızın bir hissəsindən qaçıb getdilər, amma biz dayandıq, çünki biz öz torpağımızdayıq. Onlar isə başa düşürlər ki, öz torpaqlarında yaşamırlar».

Ali Baş Komandan qeyd edib ki, ağdamlılar birinci Qarabağ müharibəsində böyük fədakarlıq, rəşadət göstərmişlər. Ən çox şəhid verən Ağdam rayonu olmuşdur: «Siz bu dəfə də - aprel hadisələrində də böyük qəhrəmanlıq, rəşadət göstərmisiniz. Bütün Azərbaycan xalqı bunu bilir və sizinlə fəxr edir. Bu gün isə tarixi bir gündür. Ona görə ki, o vaxt dağıdılmış evin yerində yenidən bu gözəl evin tikilməsi, digər evlərin tikilməsi, bərpası çox rəmzi məna daşıyır. Bu, bizim növbəti qələbəmizdir».

## Regional Data və Beynəlxalq Kommutasiya mərkəzləri açılıb

Dekabrın 5-də Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Bakıda Regional Data və Beynəlxalq Kommutasiya mərkəzlərinin açılışı olub. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər. Dövlətimizin başçısına bildirilib ki, Regional Data Mərkəzinin və IP əsaslı Beynəlxalq Kommutasiya Mərkəzinin operatoru 2015-ci ilin iyun ayında yenidən strukturlaşdırılaraq adı dəyişdirilən «AzInTelecom» Məhdud Məsuliyyətli Cəmiyyətidir. Qurumun inzibati binası ən müasir standartlara uyğun şəkildə yenidən qurulub. Yeni binada əməkdaşların fəaliyyəti üçün lazımi şərait yaradılıb. Binanın yerləşdiyi ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb.




Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni yaradılan Data Mərkəzinin fəaliyyəti ilə tanış olublar. Data Mərkəzi TİER III beynəlxalq sertifikatına layiq görülüb. Fasiləsiz iş rejimində məlumatların təhlükəsizliyinin nəzarətlə tam təmini olunması, şirkətlərin konkret tələblərinə cavab verən, ehtiyac yarandıqda onlara infrastruktur əldə etməyə imkan yaradan virtual və ayrılmış serverlərin, həmçinin optimallaşdırılmış şəbəkənin qurulması Data Mərkəzinin çoxsaylı üstünlüklərindəndir. Bu isə öz növbəsində, şirkətlərə kapital xərclərini sıfıra endirməyə, istismar xərclərini isə 30-40 faiz azaltmağa imkan yaratmaqla yanaşı, məhsuldarlığı artıraraq biznesin dayanıqlılığına öz töhfəsini verəcək.

Data Mərkəzi bulud əsaslı İT həllər, eləcə də beynəlxalq trafik və sertifikatlaşdırma ilə bağlı digər xidmətlər də təqdim edir. Həmin Mərkəz vasitəsilə şəbəkələrarası sərhəd qoşulma nöqtələrində siqnal protokollarının ötürülməsinə, media-kanalların keyfiyyətinə, paketlərin gecikməsi və itməsinə də nəzarət həyata keçirilir. Mərkəz mobil şəbəkə üzrə daşınan mobil nömrələrə daxil olan zəngləri daşınmanı həyata keçirən operatorun şəbəkəsinə terminasiya edir, eləcə də sifarişçilərin istəklərinə uyğun olaraq müxtəlif tarif paketlərinin tətbiqi, silsilə servislərin idarə edilməsinə də təminat yaradır.

Dövlətimizin başçısı və xanımı Beynəlxalq Kommutasiya Mərkəzinin fəaliyyəti ilə də tanış olublar. Qeyd edilib ki, bu sahə üzrə əldə edilmiş uğurlardan biri də trafik analizlərinin optimallaşdırılması məqsədilə ilə İP əsaslı kommutasiya platformalarında beynəlxalq kommutasiya stansiyasının yaradılmasıdır. Beynəlxalq Kommutasiya Mərkəzi giriş və çıxış zənglərinin monitorinqinin təkmilləşdirilməsini, analoq və ya rəqəmli kommunikasiya kanalında bir neçə siqnalın və ya sürət-bit axınının olduğu kimi verilməsini mümkün edir. Bu platformadan istifadə edərək əhali və biznes sektoru üçün səs, video, data, SMS və digər müxtəlif telekommunikasiya və multimedia xidmətlərinin göstərilməsi təmin olunacaq.

Daha sonra dövlətimizin başçısı və xanımı Beynəlxalq Kommutasiya və Regional Data mərkəzlərinin yerləşdiyi «AzInTelecom» Məhdud Məsuliyyəti Cəmiyyətinin inzibati binasındakı iş şəraiti və maddi-texniki baza ilə tanış olublar. Diqqətə çatdırılıb ki, informasiyaların idarə olunmasının düzgün şəkildə təmin edilməsi günün başlıca məsələlərindəndir. Bu prosesin təhlükəsiz və sərfəli qiymətlərlə həyata keçirilməsi də vacib şərtlərdəndir. Bu baxımdan lazımi xidmətlərin cəmləndiyi Data Mərkəzi mühüm əhəmiyyət kəsb edir.

Respublikamızda bu xidmətlərin daha geniş tətbiqinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.

## Azərbaycan-Pakistan əlaqələri möhkəmlənir

Prezident İlham Əliyev dekabrın 5-də Pakistan İslam Respublikasının ticarət naziri Xürrəm Dastgir Xanı qəbul edib. Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin ölkəmizə səfərlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı hər iki səfərin uğurlu və məhsuldar olduğunu vurğulayaraq, bu səfərlərin ölkələrimiz arasında mövcud qardaşlıq əlaqələrinin gücləndirilməsi baxımından önəmini qeyd edib. Prezident İlham Əliyev qarşılıqlı ticarətin səviyyəsinin inkişaf etdirilməsi, sərmayə qoyuluşu və biznes imkanlarının müəyyənləşdirilməsi üçün ölkələrimizin müvafiq nazirliklərinin praktik səviyyədə görüşlər keçirməsi üçün də yaxşı fürsət yarandığını bildirib.

Pakistan İslam Respublikasının ticarət naziri Xürrəm Dastgir Xan bildirib ki, səfər ikitərəfli əlaqələrimizin inkişafına imkan yaradacaq.

Görüşdə ölkələrimiz arasında enerji, ticarət əlaqələrinin genişləndirilməsi, kənd təsərrüfatı, əczaçılıq və toxuculuq sənayesi sahələrində əməkdaşlığın önəmi qeyd olunub.

## Türkiyənin rəsmi nümayəndə heyəti ölkəmizdə səfərdə olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nazir Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Türkiyə Prezidentinə möhkəm cansağlığı arzulayan dövlətimizin başçısı bildirib ki, ölkələrimizi dostluq və qardaşlıq əlaqələri bağlayır. Prezident İlham Əliyev ölkələrimizin müxtəlif nazirliklərinin rəhbərləri arasında da sıx əlaqələrin mövcud olmasından məmnunluğunu ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

## ABŞ Ticarət Nazirliyinin nümayəndələri ilə görüş

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 1-də ABŞ-ın ticarət nazirinin Avropa, Orta Şərq və Afrika üzrə müşavirinin müavini Maykl Lallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə iştirak edən ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunaraq enerji sahəsində uğurlu əməkdaşlıq həyata keçirildiyini vurğulayıb. Bakıda keçirilən ilk Azərbaycan-ABŞ biznes forumunun əhəmiyyətini qeyd edərək bu tədbirin ölkələrimiz arasında biznes əlaqələrinin qurulması üçün yaxşı imkanlar yaratdığını qeyd edib. Səfir dünyada neftin qiymətinin kəskin dəyişməsinin də iqtisadi vəziyyətə təsir etdiyini vurğulayıb. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 25 il keçdiyi illərdə ABŞ üçün güclü tərəfdaş ölkə olduğunu bildirib və ölkəsinin Azərbaycanda baş verən bütün müsbət dəyişiklikləri yüksək qiymətləndirdiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini, mühüm enerji layihələrinin sürətlə həyata keçirildiyini qeyd edərək hazırkı şəraitdə əsas diqqətin qeyri-neft sahəsində də əməkdaşlığa yönəldilməsinin önəmini vurğulayıb və ABŞ ilə ölkəmizin qeyri-neft sektorunda daha fəal əməkdaşlığının həyata keçirilməsinin əhəmiyyətini xatırladıb.

### BU NÖMRƏMİZDƏ

BAKIDA İLK AZƏRBAYCAN-ABŞ BİZNES FORUMU KEÇİRİLİB 2

İNSAN RESURSLARININ İNKİŞAFI SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏYƏ YEKUN VURULDU 3

QARŞILIQLI ETİMADIN VƏ ŞƏFFAFLIĞIN DAHA DA ARTIRILMASI NAMİNƏ... 4

QANUNSUZ İDMAN MƏRC OYUNLARININ KEÇİRİLDİYİ MÜƏYYƏN EDİLİB 5

# Bakıda ilk Azərbaycan-ABŞ biznes forumu keçirilib

**Azərbaycanda Amerika Ticarət Palatası («AmCham») və «ADA» Universitetinin birgə təşkilatçılığı, Azərbaycanın ABŞ-dakı və ABŞ-ın Azərbaycandakı səfirliklərinin dəstəyi, həmçinin «PASHA Bank»ın maliyyə dəstəyi ilə keçirilən tədbirdə «AmCham»ın icraçı direktoru Natəvan Məmmədova ikitərəfli iqtisadi əməkdaşlığın gələcək inkişafı, yeni əlaqələrin və imkanların aşkarlanması istiqamətində biznes-forumun əhəmiyyətini vurğulayıb.**




Əsas məqsədi iki ölkə arasında biznes əlaqələrinin gücləndirilməsi üçün Azərbaycanı, onun iqtisadi potensialını, həmçinin imkan və perspektivlərini Amerika şirkətlərinə təqdim etmək olan tədbirdə «ADA» Universitetinin, Xarici İşlər və İqtisadiyyat nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, səfirliklərin nümayəndələri və digər rəsmi şəxslər çıxış ediblər. «ADA» Universitetinin baş prorektoru Qalib Məmməd, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov, «Dentons» şirkətinin icraçı tərəfdaşı Ceyms Hoqan və Azərbaycan Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rüstəm Şahbazov Azərbaycanın biznes mühiti, investisiya imkanları və özəlləşdirmə prosesi haqqında təqdimatlarla çıxış ediblər.

Biznes-forumda çıxış edən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov demişdir: «Cənubi Qafqazın ən inkişaf etmiş ölkəsi olan Azərbaycan hazırda əlverişli biznes mühitinin yaradılması baxımından mühüm islahatlar həyata keçirir. Bu islahatların əsas məqsədi qeyri-neft sektorunun inkişaf etdirilməsi, sahibkarlıq üçün əlverişli imkanların yaradılması və iqtisadiyyatın şaxələndirilməsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar ölkədə dayanıqlı iqtisadi sistemin qurulmasına, sahibkarlığın inkişafına, regionların potensialından səmərəli istifadəyə, investisiya mühitinin daha da yaxşılaşdırılmasına, yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə təkan verib. Bütün bunlar ölkəmizdə xarici investorların da fəaliyyəti üçün cəlbedici iqtisadi mühitin formalaşmasına şərait yaradır.

ABŞ iş adamları və müəssisələri Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələrində geniş təmsil olunurlar. Ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa söykənən tərəfdaşlıq münasibətləri mövcuddur. ABŞ və Azərbaycan arasında iqtisadi əlaqələrin mövcud potensialı yüksələn xətlə inkişaf edir və biz bu əlaqələrin daha da inkişaf edəcəyinə və gələcəkdə də ABŞ işgüzar dairələrinin ölkəmizə yeni investisiyalar yatıracağına ümid edirik.

Yüzlərlə xarici və yerli şirkəti özündə birləşdirən «AmCham» təşkilatı ilə Vergilər Nazirliyinin münasibətləri səmərəli tərəfdaşlıq prinsiplərinə əsaslanır. Biz ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi prosesində «AmCham»la sıx əməkdaşlıq edirik. Son illərdə birgə vergi konfransları təşkil edir, mütəmadi işgüzar görüşlər keçirir, vergitutma sahəsində aktual olan mövzular üzrə müzakirələr və fikir mübadiləsi aparırıq. Bu müzakirələr və fikir mübadiləsinin nəticələri vergi qanunvericiliyinə dəyişikliklər edilərkən və vergi sistemində islahatlar aparılarkən nəzərə alınır. Ümumiyyətlə, Vergilər Nazirliyi «AmCham» və digər ictimai təşkilatlarla işgüzar görüşlərin mütəmadi xarakter almasının tərəfdarıdır və belə müzakirələrin keçirilməsinə böyük önəm verir. Bu görüşlər vergi orqanları ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsində və vergi ödəyicilərinin vergi öhdəliklərinə əməl etməsi səviyyəsinin daha da yüksəldilməsində əhəmiyyətli rol oynayır. Vergi mühitinin liberallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması məqsədilə qanunvericiliyə hər hansı dəyişikliklər edilərkən Vergilər Nazirliyi ölkədə fəaliyyət göstərən yerli və xarici biznes subyektlərinin, onların ictimai təşkilatlarının rəyini nəzərə almağa, hər bir təklifə diqqətlə yanaşmağa çalışır».



Qeyd edək ki, biznes-forumun əhəmiyyətli məqamlarından biri də «AmCham» və Azərbaycan Dövlət Gömrük Komitəsi arasında quruma üzv olan şirkətlər üçün sərhəd-gömrük məntəqələrində malların və nəqliyyat vasitələrinin daşınmasında «yaşıl dəhliz»in və digər keçid sistemlərinin istifadəsi üzrə Anlaşma Memorandumunun imzalanması olub. Vergilər naziri Fazil Məmmədov bu münasibətlə təbriklərini çatdırıb və biznes-forumun iştirakçılarına uğurlar arzulayıb.

Sonra tədbir iştirakçıları «Bankçılıq və maliyyə», «Enerji və sənaye», «Kibertəhlükəsizlik və onlayn ticarət», «Kənd təsərrüfatı və ticarət» və «Nəqliyyat» kimi mövzuları əhatə edən sessiyalarda müzakirələr aparıblar. Tədbir işgüzar görüşlərlə davam etdirilib.

**Fəxriyyə İKRAMQIZI**

# Pakistanın ticarət naziri Vergilər Nazirliyində olub

Dekabrın 5-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Pakistan İslam Respublikasının ticarət naziri Xurram Dastqir Xanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



F.Məmmədov Azərbaycanla Pakistan arasında yüksək siyasi əlaqələrin və strateji tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu qeyd edərək bu əlaqələrin ildən-ilə genişləndiyini və bütün sahələri əhatə etdiyini bildirib. Nazir ölkə rəhbərlərinin səmimi dostluq münasibətlərinin bu əlaqələrə xüsusi təkan verdiyini, iqtisadi əlaqələrin dərinləşdirilməsi zərurətini vurğulayıb.

F.Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar, sahibkarlığın inkişafı, xarici investorlar üçün yaradılmış şərait və ölkədəki biznes mühiti barədə məlumat verib. Qeyd edilib ki, Azərbaycan son illər böyük miqdarda xarici investisiyalar cəlb etməyə nail olub və bu göstəriciyə görə regionda lider ölkədir. Azərbaycan iqtisadiyyatı xarici təsirlərə dayanıqlılığını nümayiş etdirir, ölkədə xarici investisiyaların qorunması və biznesin aparılması üçün əlverişli şərait mövcuddur.

Ölkəmizin vergi sistemində aparılan modernləşmə prosesi ilə bağlı qonağı ətraflı məlumatlandıran vergilər naziri bu islahatların əsas məqsədinin ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlar üçün daha əlverişli şərtlərin yaradılması, vergi ödəyicilərinə yüksək səviyyəli xidmətlərin göstərilməsi və vergi nəzarətinin səmərəliliyinin artırılması olduğunu diqqətə çatdırıb.

Pakistanın federal ticarət naziri Xurram Dastqir Xan ölkələr arasındakı qarşılıqlı iqtisadi və ticari əlaqələrin inkişafında hər iki ölkənin müvafiq qurumlarının önəmli rolunun olduğunu bildirərək Azərbaycanda iş adamları, eləcə də xarici investorlar üçün yaradılan münbit şərait, nəqliyyat dəhlizləri, sənaye şəhərcikləri, investisiya parkları, istehsal müəssisələri və digər iqtisadi və ticari imkanlarla daha yaxından tanışlığa ehtiyac duyduqlarını bildirib.

Qonaq Azərbaycanda əldə olunan sosial-iqtisadi inkişafın böyük maraqla qarşılandığını, iki ölkə arasında mövcud olan dostluq münasibətlərinin iqtisadi müstəviyə keçirilməsinin zəruriliyini qeyd edib, ticari və iqtisadi potensialın yüksək olduğunu, xüsusilə əczaçılıq sənayesində qarşılıqlı iqtisadi maraqların mövcud olduğunu bildirib, Azərbaycan-Pakistan biznes forumunun iqtisadi və ticari əlaqələrin daha da genişləndirilməsi baxımından faydalı olacağını deyib.

X.Dastgir Xan hər iki ölkənin vergi və gömrük xidmətləri arasında əlaqələrin dərinləşdirilməsinin, təcrübə mübadiləsi aparılmasının da vacibliyini qeyd edib.

Görüşdə ölkələrimiz arasında yaxın gələcəkdə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Vergilər Nazirliyi beynəlxalq sertifikata layiq görülüb

## Vergilər Nazirliyinin informasiya təhlükəsizliyi idarəetmə sistemlərinin beynəlxalq standartlara uyğunluğu təsdiq edilib

Son illər vergi inzibatçılığında informasiya texnologiyalarının geniş tətbiqi və Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) texniki imkanlarının genişləndirilməsi vergi ödəyicilərinə göstərilən xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılmasına, geniş çeşiddə elektron xidmətlər təqdim edilməsinə şərait yaratmaqla yanaşı, vergi xidmətində yaradılan, toplanılan və mübadilə edilən məlumatların və sənəd dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Bu da öz növbəsində, vergi orqanları tərəfindən istifadə olunan informasiya resurslarının təhlükəsizliyinin təmin edilməsi, onların təhlükəsiz idarə edilməsi, kommersiya sirri təşkil edən məlumatların qorunması üzrə daha təkmil vasitələrin tətbiq edilməsi zərurətini meydana çıxarıb.

İnformasiya resurslarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə Vergilər Nazirliyinin İnformasiya Təhlükəsizliyinin İdarəetmə Şurası tərəfindən qısa müddət ərzində bu sahədə konkret tədbirlər həyata keçirilib, informasiya təhlükəsizliyinin idarə edilməsi sisteminin yaradılması, istismarı, daim nəzarətdə saxlanılması və təkmilləşdirilməsi məqsədilə beynəlxalq standartların tətbiqi istiqamətində də işlər görülüb. Bu işlərin nəticəsi olaraq şura tərəfindən informasiya təhlükəsizliyi idarəetmə sistemlərinin (İTİS) 31 qaydası təsdiq edilib.

Vergilər Nazirliyi informasiya təhlükəsizliyi idarəetmə sistemlərinin beynəlxalq sertifikasiyadan keçirilməsi təşəbbüsü ilə çıxış edib və 2015-ci ildə Britaniya Standartları İnstitutu (BSİ) Vergilər Nazirliyinin informasiya təhlükəsizliyi sahəsində auditini keçirib. Auditin nəticələrinə görə, informasiya sistemi təhlükəsizliyinin standarta uyğunluğu müəyyən edilib. Beləliklə, Vergilər Nazirliyi beynəlxalq sertifikasiyadan keçərək İnformasiya təhlükəsizliyinin idarəetmə sistemləri İSO/İEC 27001:2013 beynəlxalq sertifikatına layiq görülüb.

Razılaşdırılmış qrafikə uyğun olaraq, informasiya təhlükəsizliyi idarəetmə sistemlərinin tələb olunan beynəlxalq standarta uyğunluğunun yoxlanılması məqsədilə 2016-cı ildə Britaniya Standartları İnstitutu növbəti nəzarət auditi keçirib. Audit zamanı uyğunsuzluq aşkar edilməyib və informasiya təhlükəsizliyi idarəetmə sistemlərinin mövcud vəziyyəti bir daha təsdiq edilib.

Qeyd olunmalıdır ki, ötən dövr ərzində Vergilər Nazirliyinə xidmət göstərən müstəqil təsərrüfat subyektlərinin də müvafiq sertifikasiyadan keçməsi istiqamətində tədbirlər keçirilib və belə təsərrüfat subyektlərindən biri artıq İSO 20000 sertifikasiyasından uğurla keçərək həmin sertifikata layiq görülüb. Bu sertifikat nəinki Vergilər Nazirliyində, həmçinin ona xidmət göstərən müstəqil təsərrüfat subyektlərində də informasiya təhlükəsizliyinin qorunması işinin beynəlxalq təcrübəyə əsaslanmaqla həyata keçirildiyini və yüksək tələblərə cavab verdiyini göstərir.

# Birgə təlimlər keçirilir

Vergilər Nazirliyində əməliyyat-istintaq fəaliyyətinin daha yüksək səviyyədə təşkil olunması istiqamətində aparılan işlərlə yanaşı, kadrların peşəkarlığının artırılması üçün də tədbirlər həyata keçirilir, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin müstəntiq, təhqiqatçı və əməliyyat müvəkkilləri vaxtaşırı olaraq müvafiq təlim və tədris kurslarına cəlb olunurlar.

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «İbtidai istintaq sahəsi üzrə inzibatçılığın təkmilləşdirilməsinə dair» tədbirlər planında departamentin müstəntiq, təhqiqatçı və əməliyyat müvəkkillərinin aidiyyəti sahələr üzrə nəzəri biliklərinin və praktiki hazırlıqlarının artırılması məqsədilə onların digər hüquq-mühafizə orqanlarının tədris müəssisələrində təlimlərə cəlb edilməsi nəzərdə tutulub. Bu məqsədlə dekabr ayının 1-dən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Departamentin əməliyyat müvəkkillərinin əməliyyat-axtarış fəaliyyəti, cinayət və cinayət-prosessual qanunvericiliyi üzrə nəzəri biliklərinin və praktiki hazırlıqlarının artırılması məqsədilə təlimlərin aparılmasına start verilib. Təlimlər dekabrın 23-dək davam edəcək, sonda dinləyicilər imtahan verəcəklər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Mərkəzi Bankının rəsmi valyuta ehtiyatları dekabrın 1-nə **4,011 milyard** ABŞ dolları təşkil edib. Bu göstərici ötən ayın 1-i ilə müqayisədə **5,5 milyon** dollar çoxdur.
- Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən valyuta hərraclarında 2016-cı ilin noyabr ayı ərzində **301,5 milyon** ABŞ dolları məbləğində vəsait satılıb.
- Gələn ilin dövlət büdcəsindən qeyri-neft məhsullarının ixracının təşviqi üçün **10 milyon** manat vəsait ayrılacaq.
- Bu ilin noyabrın 1-nə Azərbaycanda quraşdırılmış POS-terminalların ümumi sayı **68 min 152** ədəd təşkil edib.
- Bu ilin ilk on ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə ət istehsalı **1,8%**, süd istehsalı **2,9%**, yumurta istehsalı **4,3%**, yun istehsalı **1%** artıb.

# İnsan resurslarının inkişafı sahəsində həyata keçirilən layihəyə yekun vuruldu

**Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsinin yekunlarına həsr olunmuş təqdimat mərasimi keçirilmişdir.**




**Tədbirdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov** bildirmişdir ki, belə layihələr dövlət başçısının rəhbərliyi ilə ölkədə bütün sahələrdə həyata keçirilən modernləşdirmə siyasətinin və Azərbaycan ilə Avropa İttifaqı arasında olan səmərəli əməkdaşlığın real nəticəsidir: «Layihənin insan resurslarının inkişafı istiqamətində həyata keçirilməsi təsadüfi deyildir. Hamıya məlumdur ki, istənilən səviyyədə dayanıqlı inkişafa nail olmaq üçün ilk növbədə mövcud resurslar təyinatı üzrə, effektiv şəkildə və məsuliyyətlə istifadə edilməlidir. Bunlardan ən başlıcası isə, təbii ki, insan resurslarıdır. Xüsusən hökumətin məqsəd və funksiyalarını yerinə yetirən dövlət orqanlarında çalışan əməkdaşların potensialından düzgün istifadə edilməsi və onların peşəkarlığının fasiləsiz olaraq artırılması müvafiq sahələrin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkə Prezidenti neft kapitalının insan kapitalına çevrilməsi strategiyası rəhbər tutularaq, Azərbaycanda müxtəlif sahələr üzrə qəbul edilən dövlət proqramlarında, milli strategiyalarda və fəaliyyət planlarında dövlət orqanlarının əməkdaşlarının potensialının inkişaf etdirilməsini əsas məsələlərdən biri kimi qarşıya qoyulub. Vergilər Nazirliyi də öz növbəsində dövlət vergi orqanları qarşısında qoyulan məqsəd və vəzifələrə yüksək səviyyədə nail olunması üçün malik olduğu insan resurslarının inkişaf etdirilməsini daim diqqət mərkəzində saxlayır».

> “ Hökumətin məqsəd və funksiyalarını yerinə yetirən dövlət orqanlarında çalışan əməkdaşların potensialından düzgün istifadə edilməsi və onların peşəkarlığının fasiləsiz olaraq artırılması müvafiq sahələrin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir

S.Ələkbərov qeyd etmişdir ki, Vergilər Nazirliyi vergi qanunvericiliyinin və inzibatçılığının modernləşdirilməsi sahəsində daim ən qabaqcıl təcrübələri və yeni imkanları öyrənir, öz fəaliyyətində müasir informasiya texnologiyalarından və beynəlxalq təcrübədən geniş istifadə edir: «Son illər bu məqsədlə bir sıra iri layihələr, o cümlədən AVİS, e-bəyannamələr, ƏDV depozit hesabları, e-hesab-fakturalar, e-qeydiyyat, elektron audit və mobil imza layihələri həyata keçirilmişdir. Ölkə başçısının 2016-cı il 4 avqust tarixli sərəncamı ilə vergi sahəsində islahatların növbəti istiqamətləri müəyyənləşdirilmiş, o cümlədən avtomatlaşdırılmış risklərin idarə edilməsi sisteminin yaradılması və e-auditin tətbiqinin genişləndirilməsi ilə əlaqədar Vergilər Nazirliyi qarşısında mühüm vəzifələr qoyulmuşdur. Bu vəzifələrin icrası ilə bağlı nazirliyin strukturları bütün gücü ilə işləyir və tapşırıqlar tam yerinə yetiriləcəkdir. Bütün bu tədbirlər sürətlə gedən dəyişikliklərə və qarşıya qoyulan hədəflərə uyğunlaşa bilən vergi işçilərinin olması, onların peşəkar bilik və bacarıqlarının fasiləsiz təkmilləşdirilməsi və potensiallarından təyinatı üzrə maksimum istifadə edilməsi məsələsini ön plana çıxarır».

Nazir müavini əlavə etmişdir ki, vergilər nazirinin əmri ilə təsdiq edilmiş «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası»nda nazirliyin potensial imkanlarından biri kimi malik olduğu insan kapitalı xüsusi vurğulanır və idarəetmədə səmərəliliyin artırılması, əməkdaşların tədris və təlim prosesinin təkmilləşdirilməsi strateji məqsədlər kimi müəyyən edilir. Vergilər nazirinin digər əmri ilə təsdiq edilmiş 2016-cı il və növbəti 3 ildə vergi inzibatçılığının təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri kimi insan resurslarının inkişaf etdirilməsi nəzərdə tutulur: «Biz bu gün əminliklə deyə bilərik ki, insan resurslarının inkişaf etdirilməsi istiqamətində qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün nazirliyin zəruri qanunvericilik, institusional və maddi-texniki bazası yaradılmışdır. Misal üçün, 2005-ci ildən dövlət vergi orqanlarına işə qəbul müsabiqə qaydasında həyata keçirilir. İndiyədək vergi orqanlarında müsabiqə yolu ilə 1200-ə yaxın şəxs işlə təmin edilmişdir. Şamaxı şəhərində nazirliyin Tədris Mərkəzi fəaliyyət göstərir. Ən müasir auditoriyalarla, texniki avadanlıqlarla, dinləyicilərin və təlimçilərin qalması üçün yataqxanalarla təchiz edilmiş bu mərkəzdə İKT-nin imkanlarından istifadə olunmaqla 2015-ci ildən onlayn rejimdə iş yerindən ayrılmadan dövlət vergi orqanları əməkdaşları üçün e-təlimlər keçilməkdədir. Bu, az xərc və vaxt sərf etməklə təlim proseslərinin intensivləşməsinə imkan verir. 2015-ci ildən bəri onlayn təlim sistemi ilə 3900 vergi əməkdaşı e-təlimlərə cəlb edilmişdir. Bu ildən nazirliyin əməkdaşlarının müvafiq sahələr üzrə bilik və bacarıqlarının sertifikasiyasına da başlanılmışdır».

Qeyd olunmuşdur ki, nazirlik görülmüş bu tədbirlərlə işi yekunlaşmış hesab etmir. İnsan resurslarının dayanıqlı inkişafının təmin olunması üçün kompleks şəkildə işlər davam etdirilməli, o cümlədən insan resurslarının yeni idarəetmə alətləri tətbiq olunmalı, təlim proqramları və materialları daima təkmilləşdirilməli, onların işçilərə çatdırılması üçün ən müasir texnologiyalardan və metodlardan istifadə edilməlidir: «Bu məqsədlərə çatmaq üçün beynəlxalq təcrübəyə əsaslanmaqla insan resurslarının inkişafının uzunmüddətli strategiyasının və tədbirlər planının hazırlanması vacibdir. İşçilərin yeni bilikləri mənimsəməsi, motivasiyalarının artırılması və peşəkar karyeralarının inkişafı üçün şəffaflıq və rəqabətlilik prinsipləri əsasında yeni tənzimləyici qaydalar və prosedurlar işlənib hazırlanmalıdır. Bütün bu strateji vəzifələrin yerinə yetirilməsi üçün Vergilər Nazirliyinin əməkdaşları insan resurslarının idarə edilməsi, risklərin analizi üçün informasiyaların toplanması və təhlili üsulları sahəsində İspaniya və Fransa vergi administrasiyalarının ən yaxşı təcrübələrini 27 ay davam edən tvinninq layihəsinin icrası zamanı ətraflı şəkildə öyrəndilər. Bunun əsasında insan resurslarının inkişafı sahəsində uzunmüddətli strategiya və tədbirlər planının layihəsi, insan resurslarının idarə edilməsi sahəsində bir sıra qaydalar, tədris-təlim proqramları, üsulları və təlim keçmək üçün metodiki materiallar hazırlandı, o cümlədən yekun hesabat və 2 kitab nəşr olundu. Layihə üzrə görülmüş və görülməsi nəzərdə tutulan bütün işlər dolayı yolla ölkədə aparılan mühüm islahatlar çərçivəsində vergi xidmətlərinin daha da inkişaf etdirilməsinə və vergi daxilolmalarının davamlı şəkildə artmasına öz töhfəsini verəcəkdir».

> “ İşçilərin yeni bilikləri mənimsəməsi, motivasiyalarının artırılması və peşəkar karyeralarının inkişafı üçün şəffaflıq və rəqabətlilik prinsipləri əsasında yeni tənzimləyici qaydalar və prosedurlar işlənib hazırlanmalıdır

> “ Layihə üzrə görülmüş və görülməsi nəzərdə tutulan bütün işlər dolayı yolla ölkədə aparılan mühüm islahatlar çərçivəsində vergi xidmətlərinin daha da inkişaf etdirilməsinə və vergi daxilolmalarının davamlı şəkildə artmasına öz töhfəsini verəcəkdir

**Azərbaycanda Avropa İttifaqının əməkdaşlıq şöbəsinin müdiri Jeron Villeams** çıxışında ölkəmizin Avropaya inteqrasiyasının bir qədər də dərinləşməsi istiqamətində həyata keçirilən proqramların əhəmiyyətinə toxunaraq, münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu vurğulamışdır. Bildirmişdir ki, bu layihə Azərbaycanın vergi sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində atılan mühüm addımlardandır. Müasir tədris alətlərinin tətbiqini yüksək qiymətləndirən J.Villeams Azərbaycanın vergi sisteminin biliklərə əsaslanan, inkişaf etmiş insan resursları ilə idarə olunan innovativ cəmiyyətin tərkib hissəsi olduğunu və tvinninq layihəsinin bu sahəyə xüsusi töhfə verdiyini bildirmişdir: «Azərbaycanın Avropa İttifaqı ilə partnyorluğu doğrudan da yüksək səviyyədədir. 10 il ərzində Azərbaycan 47 tvinninq layihəsindən bəhrələnib. Bu layihələr ölkənin Avropa standartlarına, Avropa təcrübəsinə yaxınlaşması üçün gözəl fürsətdir. Hazırda təxminən 30 dövlət qurumu müxtəlif tvinninq layihələrindən bəhrələnir».

**Fransanın ölkəmizdəki səfirinin müavini Fabyen Droyt Lozinski** məmnunluğunu ifadə edərək qeyd etmişdir ki, bu cür layihələr insan resurslarının təkmilləşdirilməsi baxımından çox önəmlidir. Gələn ildən İspaniya ilə daha bir tvinninq layihəsinin həyata keçiriləcəyini deyən F.Lozinskinin sözlərinə görə, belə layihələrin həyata keçirilməsi Azərbaycan ilə Avropa İttifaqı orqanları arasında münasibətlərin möhkəmlənməsi deməkdir.

**İspaniyanın ölkəmizdə müvəqqəti işlər vəkili Jose Luis Dies** layihə çərçivəsində görülən işlərin çox məhsuldar və məmnunedici səviyyədə aparıldığını qeyd etmişdir: «İspaniya Azərbaycanla əməkdaşlığa önəm verir və bunu davam etdirmək niyyətindədir. Ölkənin modernləşdirilməsi, islahatların keçirilməsi, iqtisadi, mədəni və digər sahələrdə də əməkdaşlıq etmək, əlaqələr qurmaq istəyirik. Ölkələrimiz arasında qurulan bu əməkdaşlıq çərçivəsində birinci tvinninq layihəsindən sonra ikincisinə başlanılırsa, bu o deməkdir ki, Azərbaycan və İspaniya arasında əlaqələr, hər iki ölkənin dövlət qulluqçuları arasında münasibətlər inkişaf edir».

**Azərbaycan tərəfindən layihənin rəhbəri Asəf Əsədov** tvinninq layihəsi barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Qeyd etmişdir ki, 27 ay davam edən layihənin icrasına 2014-cü ilin sentyabr ayından başlanmışdır: «Avropa İttifaqının müasir prinsipləri əsasında daha yaxşı motivasiya olunmuş, hazırlıqlı və təlim keçmiş peşəkar heyətə malik olmaq məqsədi daşıyan bu layihə üç komponentdən ibarətdir:

- Birinci komponent insan resursları üzrə yeni inkişaf strategiyasının hazırlanmasını əhatə edir. Bu məqsədlə Vergilər Nazirliyinin praktiki ehtiyacları və müasir tələblər əsasında strateji hədəflər, problemlərin həlli və tətbiqi yolları strategiyada müəyyən edilərək 2017-2019-cu illər üçün Tədbirlər Planında konkret addımlar əks olunmuşdur.
- İkinci komponent insan resurslarının inkişafını təmin edən mövcud normativ hüquqi bazanın yenilənməsi prosesinin ən yaxşı Avropa təcrübəsinə uyğun aparılmasını əhatə edir. Bu istiqamətdə konkret layihələr və normativ qaydalar hazırlanmış və tətbiqi üçün aidiyyəti üzrə təqdim edilmişdir.
- Üçüncü komponent nazirliyin təlim-tədris sisteminin modernləşdirilməsi üçün müasir konsepsiyanın hazırlanmasını əhatə edir. Bunun üçün ən mütərəqqi təlim-tədris texnologiyaları və onların tətbiqi mexanizmləri müəyyən edilmişdir».

Bildirilmişdir ki, 27 ay ərzində Fransa və İspaniya vergi administrasiyalarında insan resurslarının inkişafı sahəsinin bütün aspektləri ilə - işə qəbul, işçilərin həvəsləndirilməsi, tədris-təlim sistemi, peşəkar standartlar və digər məsələlər ilə nazirlik əməkdaşları yaxından tanış olmuşlar: «Layihənin son 3 ayı ərzində elektron ticarətin vergiyə cəlb edilməsi, risklərin təhlili üsulları, çirkli pulların yuyulması, məlumat bazaları və s. bu kimi mürəkkəb funksional sahələr üzrə İspaniya və Fransa vergi administrasiyalarının mütərəqqi təcrübəsi dərindən öyrənilmişdir». Layihənin icrası zamanı dövlət vergi orqanlarında insan resurslarının idarə edilməsi sahəsində bir sıra təkmilləşdirmə işlərinin aparıldığını, yeniliklərin tətbiq edildiyini deyən A.Əsədov bildirmişdir ki, layihənin icrası müddətində nazirliyin 150 nəfər əməkdaşı 35 işçi seminar və görüşdə 30 müxtəlif mövzu üzrə ən son təcrübə ilə yaxından tanış olmuşdur: «Avropa İttifaqının insan resursları sahəsində ən yaxşı təcrübəsinin təhlili əsasında Vergilər Nazirliyi tərəfindən uzunmüddətli insan resurslarının inkişafı strategiyası, 2017-2019-cu illər üzrə tədbirlər planı və bir sıra normativ qaydalar hazırlanmışdır».

Qeyd edilmişdir ki, layihənin nəticəsi olaraq dövlət vergi orqanlarında orta menecer vəzifələrinin tutulması üçün daxili müsabiqənin keçirilməsi qaydaları, yuxarı menecer vəzifələrinin tutulması üçün kadr ehtiyatının yaradılması və idarə olunması mexanizmi yaradılmışdır.

**İspaniya tərəfindən layihənin rəhbəri Gonzalo Gomez** və **Fransa tərəfindən layihənin rəhbəri Noel Claudon** layihənin məqsədlərinə tam şəkildə nail olunduğunu deyərək Azərbaycan, Fransa və İspaniya arasında olan əlaqələrin keyfiyyətcə yeni pilləyə qalxdığını qeyd etmiş, layihə üzrə bütün iddialı məqsədlərə nail olunduğunu vurğulamışlar.

**Vergilər Nazirliyinin İnsan resursları idarəsinin rəisi Faiq Şahbazov** demişdir: «Bu gün əminliklə deyə bilərik ki, Vergilər Nazirliyi insan resurslarının inkişaf etdirilməsi sahəsində görülən işlər baxımından Azərbaycanda qabaqcıl dövlət orqanlarındandır. Nazirlik tərəfindən işə qəbul açıq müsabiqə əsasında həyata keçirilir, kadr sənədlərinin və məlumatlarının elektron idarə edilməsi mexanizmi qurulmuşdur, işçilərin fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilir, etik davranış qaydaları hüquqi müstəvidə tənzimlənir, ayrıca Tədris Mərkəzi yaradılmışdır, əməkdaşların bilik və bacarıqları sertifikatlaşdırılır. Bütün bu proseslər qabaqcıl beynəlxalq və yerli təcrübəni, habelə informasiya texnologiyalarının imkanlarını geniş tətbiq etməklə aparılmışdır və hazırda da davam etdirilməkdədir».

Bildirilmişdir ki, Vergilər Nazirliyi insan resurslarının idarə edilməsi sahəsində dünyada sürətlə dəyişən tendensiyalara uyğun olaraq, fəaliyyətini durmadan təkmilləşdirməyə çalışır: «Biz hazırda insan resurslarının idarə edilməsində ümumi yanaşmadan fərdi yanaşmaya, bilikləri qiymətləndirməkdən bacarıqları qiymətləndirməyə keçid mərhələsindəyik. Təbii ki, burada hədəfimiz insanlar və onların resursları olduğundan, bu işlər heç də asan deyil. Odur ki, bu sahədə həm uğurlu, həm də uğursuz təcrübələri öyrənməyə, gördüyümüz və planlaşdırdığımız işlərə kənardan ekspert rəylərinə ehtiyacımız var. Bu baxımdan, «İnsan resurslarının inkişafı üzrə Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsinin bizə böyük faydası oldu». İşçilərin peşəkarlığının artırılması, o cümlədən onlayn təlim sisteminin yaradılması sahəsində Fransa və İspaniyanın təcrübəsinin nəzərə alındığını deyən idarə rəisi bir sıra daxili təlimatların, qaydaların hazırlandığını, təlim planlarına bəzi dəyişikliklərin edildiyini bildirmişdir: «Tvinninq layihəsi çərçivəsində «Dövlət vergi orqanlarında orta menecer vəzifələrinin tutulması üçün keçirilən müsahibə Qaydaları», «Dövlət vergi orqanlarında yuxarı menecer vəzifələrinin tutulması üçün kadr ehtiyatının yaradılması və idarə olunması Qaydaları» və dövlət vergi orqanları əməkdaşlarının etik davranışını tənzimləyən yeni qaydalar təsdiq edilmiş, əməkdaşların təlim tələbatlarının hərtərəfli öyrənilməsi üçün sorğu formaları və onların cavablandırılması üçün təlimat hazırlanmışdır. Sorğu 2015-ci ildə bütün vergi orqanlarında hər bir əməkdaşın təlim tələbatı öyrənilməklə keçirilmiş, nəticələri 2016-cı ilin təlim qrafikinin tərtibi zamanı nəzərə alınmış və müvafiq təlimlər təşkil edilmişdir. Layihənin icrasının yekunu olaraq planlaşdırılan növbəti tədbirlərlə bağlı nazirliyin insan resurslarının inkişafı üzrə yeni strategiyasının və onun tədbirlər planının layihəsi tərtib edilmişdir».

**Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov** qeyd etmişdir ki, mərkəz tvinninq layihəsində diqqəti layihənin üçüncü komponentinə - Vergilər Nazirliyinin insan resurslarının inkişafı üçün Avropa İttifaqının ən müasir təcrübəsinə uyğun və müasir informasiya texnologiyalarına əsaslanan dayanıqlı təhsil və təlim sisteminin yaradılmasına yönəltmişdir: «Mərkəzin əməkdaşları layihə çərçivəsində daim görüşlərdə iştirak etmiş və xarici səfərlərə göndərilmiş, toplanmış təcrübə əsasında mərkəzin fəaliyyətinin daha da təkmilləşdirilməsi, tərəfdaş ölkələrdə mövcud olan innovativ və yeni metodların tətbiq olunması üçün zəruri tədbirlər görülmüşdür».

Bildirilmişdir ki, Vergilər Nazirliyinin tvinninq layihəsi çərçivəsində təlim və tədris sahəsi üzrə əldə etdiyi ən mühüm məsələ nazirlikdə e-tədris sisteminin qurulması olmuşdur: «2015-ci ildə nazirliyin elektron kitabxanasının platformasında e-tədris sisteminin qurulması üçün bütün texniki məsələlər həll olunmuş, bu prosesi tənzimləyən qaydalar təsdiq edilmiş və sentyabr ayında ilk onlayn təlim keçilmişdir. Hazırda e-tədris modulu yalnız onlayn rejimdə, yəni telekonfrans rejimində təlimlər keçməyə imkan verir, yaxın günlərdə isə Avropada tətbiq olunan e-tədris sisteminin tam tətbiqi üçün şərait yaradılacaqdır. Bununla da təlimləri həm onlayn rejimdə keçmək mümkün olacaq, həm də müvafiq sistemdə yerləşdirməklə dinləyicilərə daha geniş şərait yaradılacaqdır».

Əlavə edilmişdir ki, layihə çərçivəsində İspaniya və Fransa vergi administrasiyalarında təlimlərin keyfiyyətinin dinləyicilər tərəfindən qiymətləndirilməsi üçün istifadə olunan metodlar öyrənilmiş və zəruri təkmilləşdirmə işləri aparılmışdır. Layihə çərçivəsində «Təlimçilər üçün təlim» adlı əyani vəsait tərcümə edilərək dərc edilmiş, mərkəzin heyətinə və nazirliyin digər təlimçilərinə paylanmışdır. Layihə çərçivəsində Vergilər Nazirliyinin Tədris Mərkəzi ilə İspaniya Krallığının Maliyyə Nazirliyinin Fiskal Tədqiqatlar İnstitutu arasında gələcək əməkdaşlığa dair memorandumun imzalanması üçün zəruri müzakirələr aparılmış və bunun üçün şifahi razılıq əldə edilmişdir.

Vergilər nazirinin müavini Sahib Ələkbərov tədbirə yekun vuraraq bildirmişdir ki, tvinninq layihəsi çox uğurlu və eyni zamanda vaxtında həyata keçirilmiş layihədir: «Azərbaycanın vergi sistemində bir çox ciddi islahatlar aparılıb. Bu ilin əvvəlindən etibarən həm çox ciddi struktur islahatları, həm də kadr islahatları həyata keçirilir. Eyni zamanda yanaşmalarda da bir sıra dəyişikliklər edilib. Vergi orqanları işini tam şəffaf qurmağa çalışır. Bunun nəticəsində isə görürük ki, artıq vergi ödəyiciləri bizə münasibətlərini dəyişməyə başlayırlar. Əlbəttə, çox istərdik ki, könüllü ödəmə səviyyəsi o dərəcədə yüksək olsun ki, Vergilər Nazirliyi vergi toplamaqla yox, yalnız vergi qanunvericiliyinə əməl olunmasına nəzarəti həyata keçirməklə məşğul olsun. Amma buna qədər hələ müəyyən bir yol keçməliyik. Düşünürəm ki, bu hədəflərə çatmaqda tvinninq layihəsinin bizə böyük köməyi olacaq».

**Aytən NƏBİYEVA**

# Qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması naminə...



Dekabr ayından Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti və 1 saylı Vergilər Departamentində «Şəffaf vergi partnyorluğu» idarələri fəaliyyətə başlayıb. Mövzu ilə bağlı suallarımızı vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev cavablandırır

**- İlkin müəllim, «Şəffaf vergi partnyorluğu» idarələrinin yaradılması zərurəti nə ilə bağlıdır?**

- Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən biri ölkəmizdə qeyri-neft sektorunun inkişafı, əlverişli biznes mühitinin yaradılması, ölkə iqtisadiyyatının lokomotivi hesab olunan sahibkarlığa geniş dövlət dəstəyinin göstərilməsidir. Bu siyasətin tərkib hissəsi olan vergi siyasəti də sahibkarlığın inkişafının dəstəklənməsinə, biznesin və vergi ödəyicilərinin fəaliyyətinin stimullaşdırılmasına, bütövlükdə ölkədə vergi mədəniyyətinin formalaşmasına istiqamətlənmişdir.

Ölkə Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamı vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatların davam etdirilməsini, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunmasını nəzərdə tutur.

Vergi sisteminin əsas subyektlərindən olan vergi ödəyicisi və vergi orqanı arasında qarşılıqlı etimada və əməkdaşlığa söykənən münasibətlərin formalaşması vergilərin məcburi ödənilməsindən könüllü ödənilməsinə keçidin əsas şərtlərindən biri hesab olunur. Könüllü əməletmə səviyyəsinin artırılması isə ilk növbədə vergi ödəyicilərinə geniş spektrli xidmətlərin formalaşdırılması, vergilərin hesablanması və ödənilməsi sisteminin sadələşdirilməsi, vergi ödəyiciləri və vergi orqanları arasında əlaqələrin daha da təkmilləşdirilməsi ilə bilavasitə bağlıdır. Təsadüfi deyil ki, son illər Vergilər Nazirliyi könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirib. Hazırda vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin sayı 63-ə çatdırılıb, vergi orqanlarına göndərilən bəyannamələrin 90%-dən çoxu elektron formada təqdim olunur. Vergi bəyannamələrinin könüllü təqdim edilməsi göstəriciləri hər il daha da yaxşılaşır və müxtəlif vergilərdən asılı olaraq 75-85 faiz arasında dəyişir.

Vergilər Nazirliyinin könüllü əməletmə səviyyəsinin artırılması yönündə həyata keçirdiyi mühüm tədbirlərdən biri də vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq müstəvisinə keçirilməsidir. Bu sahədə son illər əhəmiyyətli işlər görülüb. «Şəffaf vergi partnyorluğu» idarələrinin yaradılması tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi və keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində təzə bir yanaşmadır. Bu, ilk növbədə, intizamlı vergi ödəyiciləri ilə işin aparılmasını nəzərdə tutan bir sistemdir. Vergi öhdəliklərini vaxtında yerinə yetirən ödəyicilərə xüsusi münasibətin göstərilməsi beynəlxalq praktikada geniş yayılmış təcrübədir. İntizamlı vergi ödəyicilərinə xidmət vergi öhdəliyini yerinə yetirməyən, problemli ödəyicidən, əlbəttə ki, fərqlənməlidir.

**- Niyə məhz «Yaşıl dəhliz»? Bu «Şəffaf vergi partnyorluğu» idarələrinin ödəyicilərinə xüsusi xidmət olunacağına işarədir?**

- Beynəlxalq təcrübədə bir qayda olaraq «Yaşıl dəhliz» məhfumundan şəffaflıq və sadələşdirmə simvolu kimi istifadə olunur. Yeni idarələrdə, sözün əsl mənasında, ayrıca «yaşıl dəhliz» yaradılacaq. «Şəffaf vergi partnyorluğu» idarələrinin qeydiyyatında olan ödəyicilərə növbədənkənar xidmət ediləcək. Bundan başqa, belə ödəyicilər üçün vergi əməkdaşlarından xüsusi kuratorlar təhkim ediləcək. Onların vergi sahəsində hər hansı çətinliyi yaranarsa, sualı meydana çıxarsa, hansısa ziddiyyətli bir məsələ qalxarsa, onlar öz kuratorlarına müraciət etmək imkanı olacaqlar. Belə ödəyicilərə çevik xidmət göstəriləcək, bütün məsələlərin operativ şəkildə həllinə nail olunacaq. Məsələn, əlbəəl çatdırılmalı olan sənədlər vergi orqanı tərəfindən ödəyiciyə birbaşa təqdim ediləcək, onlara ünvanlı xidmətlər göstəriləcək. Vergi ödəyicisinin uçot məlumatlarında hər hansı uyğunsuzluq aşkar edilərsə, təhkim olunmuş kurator dərhal vergi ödəyicisi ilə əlaqə saxlayaraq onu məlumatlandıracaq, onunla birlikdə ortaya çıxmış məsələni müzakirə edəcək və onun çətinliklərini aradan qaldırmağa çalışacaq. Yəni belə ödəyicilərin öhdəliklərini davamlı olaraq yerinə yetirilməsinə kömək etmək üçün vergi orqanı həmişə onların yanında olacaqdır.

**- «Yaşıl dəhliz»dən istifadə edə biləcək vergi ödəyiciləri hansı meyarlara əsasən seçilir? Onlar intizamlı vergi ödəyiciləridir, yoxsa böyük həcmdə vergi öhdəlikləri yerinə yetirən ödəyicilərdir?**

- Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş meyarlar əsasında müəyyən ediləcək. Əlbəttə, vergi ödəyicisinin çox və ya az vergi ödəməsi onun intizamlı olmasının göstəricisi deyil.

Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri, ilk növbədə, vergi öhdəliklərini vaxtında yerinə yetirən, vergilərini tam həcmdə ödəyən, işçi heyətinin sayını və faktiki əmək haqlarını düzgün bəyan edən, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun olaraq aparan, riskli vergi ödəyiciləri ilə əməliyyatlar aparmayan, son 3 il ərzində iqtisadi sahədə cinayət təqibinə məruz qalmamış ödəyicilərdir.

**- Ölkəmizdə belə meyarlara cavab verən vergi ödəyicilərinin sayı təxminən nə qədərdir? Gələcəkdə regional vergi orqanlarında da belə idarələrin yaradılması nəzərdə tutulurmu?**

- Vergi orqanlarında yaradılmış Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) texniki imkanları bizə vergi ödəyicilərinin əməliyyatları üzrə 300-dən yuxarı çarpaz təhlil aparmağa və beləliklə, onun fəaliyyətinə tam şəkildə nəzarət etməyə imkan verir. İntizamlı vergi ödəyicisinin müəyyənləşdirilməsi zamanı onlar bu təhlillərin süzgəcindən keçir və biz belə ödəyiciləri mövcud meyarlar üzrə yoxladıqdan sonra müəyyən edirik. İlkin mərhələdə Bakı şəhərində belə tələblərə cavab verən ödəyicilərin sayı 400-ə yaxındır.

Regionlara gəlincə, belə qurumların yaradılması ilə bağlı təkliflərin hazırlanması üzərində iş gedir və yaxın vaxtlarda həmin təkliflər də müzakirə olunacaqdır.

**- Vergi ödəyicisinin «Şəffaf vergi partnyorluğu» idarəsinin xidmətlərindən istifadə etməsinin faydası nədir? Yəni sahibkarın intizamlı vergi ödəyiciləri sırasına qoşulması ona konkret nə verəcək?**

- Hər şeydən öncə, yaddan çıxarmayaq ki, vergi öhdəliyini vaxtında və tam həcmdə ödəmək hər kəsin konstitusiya ilə müəyyən olunmuş vəzifəsidir. Yəni sahibkar öz konstitusiya borcunun həyata keçirilməsi üçün dövlətdən əvəz ummamalıdır.

Ayrı bir məsələdir ki, öz borcunu anlayan, onu vicdanla həyata keçirən vergi ödəyicinin daha yüksək keyfiyyətli xidmət əldə etməyə, fərdi yanaşmaya əsaslanan yüksək münasibət gözləməyə haqqı var.

«Şəffaf vergi partnyorluğu» idarəsinin qeydiyyata alınacaq vergi ödəyiciləri məhz yüksək səviyyəli xidmət əldə edəcəklər. Buraya, ilk növbədə, vaxt itkisinə yol verilməməsi, qəfil yoxlama və ya vergi nəzarəti tədbirləri ilə üzləşməməsi, sabit vergi planlaması apara bilməsi, vergilərlə bağlı yaranmış çətinliklərinin onunla razılaşdırılmış qaydada həll edilməsi və s. daxildir.

Vergi orqanı belə ödəyicilərin vergitutma ilə bağlı müraciətlərinin prioritet olaraq cavablandırılması, təqdim etdikləri bəyannamələrlə bağlı hər hansı uyğunsuzluq və ya sual yaradan məqam olduğu halda həmin vergi ödəyicilərinin və ya onların nümayəndələrinin iştirakı ilə belə halların qısa müddətdə aradan qaldırılması, onlara ünvanlı xidmətlərin göstərilməsi, onların vergi qanunvericiliyində baş vermiş dəyişikliklərlə bağlı dərhal məlumatlandırılması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin birgə müzakirə edilməsi və digər istiqamətlərdə vəzifələri həyata keçirəcəkdir.

Mühüm faydalardan biri kimi bunu da göstərmək olar ki, şəffaf vergi partnyorluğu strukturları tərəfindən xidmət edilən vergi ödəyicilərinin fəaliyyəti üzrə vergi xidmətinin digər strukturları tərəfindən aparılan vergi nəzarəti tədbirləri həmin idarələrlə razılaşdırılacaq və əlaqələndiriləcəkdir. Yəni bu idarə ilə razılaşdırılmamış hər hansı nəzarət tədbiri aparılmayacaqdır.

Şəffaf vergi partnyorluğu idarələrində qeydiyyatda olan ödəyicilərə təhkim olunmuş kuratorlar isə bir növ ödəyicinin çətinliklərinin aradan qaldırılmasında yardımçı rolunda çıxış edəcəklər.

Yeri gəlmişkən, intizamlı vergi ödəyicisi onunla çalışan kontragentlər üçün də vacib tərəfdaşdır. Çünki şəffaf partnyor olmaq hər bir biznes subyektinin etimad və etibarının göstəricisi olacaqdır.

Dövlət qarşısında öhdəliklərini yerinə yetirən intizamlı vergi ödəyiciləri üçün yaradılan bu şərait onların vergi öhdəliklərini rahat və tez həyata keçirməsinə, yarana biləcək çətinlikləri və problemləri vergi orqanları ilə birgə dərhal aradan qaldırmasına imkan verəcək və digər vergi ödəyicilərinin də vergi öhdəliklərini vaxtında həyata keçirməyə və intizamlı ödəyicilər sırasına qatılmasını stimullaşdıracaqdır.

**- Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə partnyorluq və tərəfdaşlıq münasibətlərinin qurulması siyasətini genişləndirmək planları varmı?**

- Ölkə Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamında təsdiq edilmiş mühüm istiqamətlər sırasında vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq münasibətlərinin daha da genişləndirilməsi və şəffaflığının artırılması, eləcə də intizamlı vergi ödəyiciləri ilə münasibətlərin daha yüksək səviyyəyə çatdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Qarşıdakı dövrdə bununla bağlı vergi ödəyiciləri üçün bir sıra yeni layihələr də həyata keçiriləcək. «Könüllü vergi açıqlaması» (Voluntary tax disclosnre), «vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması» (Advance tax ruling) və s. kimi müasir institutların vergi qanunvericiliyinə gətirilməsi üzrə işlər aparılır.

Vergi öhdəliklərinin əvvəlcədən müəyyənləşdirilməsi («Advance tax ruling») sistemi inkişaf etmiş ölkələrdə istər fərdi vergi ödəyiciləri, istərsə də iri şirkətlər üçün geniş istifadə edilən alətlərdəndir. Bu zaman vergi ödəyicilərinin müraciəti əsasında vergi orqanları qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin vergi ödəyicisinin əməliyyatları üzrə yarana biləcək vergi öhdəliyi barədə məlumat hazırlayaraq ona təqdim edirlər.

Sahibkarların hər hansı səbəbdən vergi öhdəliklərini düzgün müəyyən etməməsi nəticəsində Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur. Yəni həmin şəxsə maliyyə sanksiyaları və faizlər hesablanır və o, maliyyə sanksiyaları və faizləri ödəməklə dövriyyə vəsaitindən səmərəli istifadə edə bilmir, nəticədə ciddi maliyyə itkiləri ilə üzləşir. Belə halların qarşısının alınmasına kömək edən üsullardan biri də vergi ödəyiciləri tərəfindən aparılması planlaşdırılan əməliyyatlar üzrə vergi öhdəliklərinin əvvəlcədən müəyyənləşdirilməsi mexanizminin hazırlanmasıdır.

Vergi öhdəliklərinin hüquqi nəticələr doğurmadan vergi orqanları ilə razılaşdırılması qaydasının müəyyən edilməsi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklər layihəsi hazırlanıb və təqdim edilib.

Bundan başqa, hər bir vergi ödəyicisinə öz səhvlərini könüllü açıqlamaq şansı da veriləcəkdir. Könüllü vergi açıqlaması, vergi yoxlaması üçün qanunla müəyyən edilmiş müddət bitdikdən sonra, yoxlama zamanı aşkar olunmamış səhvlərin könüllü bəyan edilməsini nəzərdə tutur. Bununla da vergi ödəyicisinin dəqiqləşmiş bəyannamə vermək hüququ yaranacaq və həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə faizlərin hesablanması və maliyyə sanksiyasının tətbiqi istisna ediləcək.

Bütün bunlar vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin daha şəffaf qurulmasına, vergi ödəyicilərinin hüquqlarının genişlənməsinə, tərəfdaşlıq münasibətlərinin dərinləşməsinə əhəmiyyətli dərəcədə müsbət təsir edəcəkdir.

# Azərbaycan vergilərin ödənilməsi göstəricisi üzrə Avropada ən yaxşı ölkələr sırasındadır

## Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2017» hesabatında vergiyə aid istiqamətlər üzrə ölkəmiz ən yaxşı nəticələr əldə edib

Dünya Bankının ölkəmizdəki tərəfdaşı («PricewaterhouseCoopers» («PwC Azərbaycan») şirkətinin vergi məsələləri üzrə direktoru Arif Quliyevin sözlərinə görə, Azərbaycanın «Biznesə başlama» («Starting business») göstəricisi üzrə əvvəlki illə müqayisədə iki pillə irəliləməsi və ilk beşlikdə yer alması Vergilər Nazirliyi tərəfindən həyata keçirilmiş uğurlu islahatların nəticəsi sayıla bilər. Mütəxəssisin sözlərinə görə, vergi sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində biznesə başlama prosedurları əsaslı surətdə sadələşdirilib. 2011-2013-cü illərdə ölkəmizdə «e-qeydiyyat» üzrə aparılan islahatlar prosedurların əhəmiyyətli dərəcədə asanlaşdırılmasına şərait yaradıb. 2011-ci il iyulun 1-dən fərdi sahibkarların «e-qeydiyyat» sisteminə başlanılıb ki, bu da sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergi orqanına getmədən internet vasitəsilə uçota dayanmasına imkan verib. 2012-ci ilin fevral ayından isə Azərbaycanda yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin qeydiyyatı elektron üsulla aparılmaqdadır. 2014-cü il noyabrın 28-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, fiziki şəxslərin vergi uçotuna alınması sahəsində növbəti addımlar atılıb ki, bununla da fiziki şəxslərin elektron formada dərhal vergi uçotuna alınması təmin edilib. Kommersiya hüquqi şəxslərin «e-qeydiyyat» sisteminin tətbiqi dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan üç məcburi prosedurdan keçmək zərurətini tamamilə aradan qaldırıb və ümumilikdə qeydiyyatın aparılmasına sərf edilən müddəti azalıb.

Qeyd edək ki, «Biznesə başlama» göstəricisi xarici investisiyalar və yeni texnologiyaların axınına stimullaşdırıcı təsir edən amil kimi dəyərləndirilir və




ölkədə əlverişli sərmayə mühitinin olmasının təkanverici amili hesab olunur. A.Quliyevin sözlərinə görə, Azərbaycanın həmin indeks üzrə 5-ci yerdə qərarlaşması ölkənin azad biznesə açıq olduğunu nümayiş etdirir və bunun xarici investisiyalar üçün böyük əhəmiyyəti olacaq.

Azərbaycanın hesabatda «Vergilərin ödənilməsi» («Paying Taxes») indeksi üzrə də yaxşı mövqedə olması (40-cı yer) son illərdə vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində əldə olunmuş nailiyyətlərin məntiqi nəticəsi hesab edilir. Onun fikrincə, Dünya Bankı «Vergilərin ödənişləri» üzrə təhlillər apararkən yerli şirkətlərin vergi qanunvericiliyinə və qaydalarına uyğunluq baxımından əməletmə vəziyyətini, vergi sistemindəki vaxt və müddət fakturunu, ödəmə rejimlərini, əməliyyatların sayı, prosedurları və digər amilləri nəzərə alır. Təhlillər göstərir ki, Azərbaycanın vergi sisteminin vəziyyəti əksər ölkələrin sistemlərindən xeyli yaxşıdır: «Azərbaycanda son illər vergi sistemində həyata keçirilən islahatlar - ƏDV depozit hesabının tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, vergilərin elektron ödənişi, fiziki və hüquqi şəxslərin qeydiyyatının real vaxt rejimində aparılması və digər yeniliklər yüksək reytinqin əldə olunmasında mühüm rol oynayıb. Elektron vergi bəyannamələrinin tətbiqinin genişlənməsi və vergi ödənişləri infrastrukturunun inkişafı, vergitutma sahəsində xərc tələb edən prosedurlar, vergi qanunvericiliyinin tələblərinə riayət edilməsinə sərf olunan vaxt və vergi ödənişlərinin sayının azaldılması ölkəmizdə vergi sahəsində kompleks islahatların aparıldığını təsdiqləyir. Məsələn, 2008-ci ildə tərtib edilən «Doing Business» hesabatında «Vergi ödənişləri» indeksi üzrə Azərbaycan 108-ci pillədə olduğu halda, son hesabatda 68 pillə irəliləyərək 40-cı yerdə qərarlaşıb. Respublikamız bu göstərici üzrə Avropanın ən qabaqcıl və çevik vergi sistemlərinin qurulduğu Almaniya (48), Avstriya (42), Polşa (47) kimi ölkələri qabaqlayıb. Azərbaycan şirkətləri il ərzində 6 dəfə vergi ödənişləri aparır, öz vergi öhdəliklərini yerinə yetirmək üçün 195 saat sərf edir, ümumi vergi dərəcəsi isə 39,8% təşkil edir. Bütün bu faktorlar ölkəmizin vergi sisteminin beynəlxalq standartlara tam uyğun qurulduğunu təsdiqləyir».

A.Quliyev hazırda vergi inzibatçılığı və qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı davam etdirilən islahatlara diqqət çəkərək, yeni islahatlar proqramının kiçik və orta sahibkarlığın daha da inkişafına və xarici investisiyaların cəlb olunması üçün rəqabətədavamlı vergi rejiminin yaradılmasına imkan verəcəyinə əminliyini bildirib. Qeyd olunub ki, islahatlar vergi sisteminin normativ-hüquqi bazasının yeni şəraitə uyğunlaşdırılması, sahibkarların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması, vergi yükünün optimallaşdırılması və vergi yükünün azalmasına mühüm təsir göstərəcək: «Vergi qanunvericiliyinin təkmil olması şəffaflığın təmin edilməsində də mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, həyata keçirilən tədbirlər bu sahədə də yüksək nəticələrin əldə olunmasına şərait yaradacaq».

**Azərbaycanda son illər vergi sistemində həyata keçirilən islahatlar - ƏDV depozit hesabının tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, vergilərin elektron ödənişi, fiziki və hüquqi şəxslərin qeydiyyatının real vaxt rejimində aparılması və digər yeniliklər yüksək reytinqin əldə olunmasında mühüm rol oynayıb**

Elbrus CƏFƏRLİ

# Qanunsuz idman mərc oyunlarının keçirildiyi müəyyən edilib

«Bədən tərbiyəsi və idman haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» ölkə Prezidentinin 2009-cu il 27 avqust tarixli fərmanında dəyişikliklər edilməsi haqqında» 2016-cı il 25 oktyabr tarixli fərmanının icrası məqsədilə Vergilər Nazirliyi tərəfindən keçirilmiş operativ nəzarət tədbirləri zamanı Gəncə şəhər sakini İlqar Abdullayevin fəaliyyət göstərdiyi Gəncə şəhəri, Şah İsmayıl Xətai prospekti ev 510A ünvanda yerləşən çayxanada qanunla müəyyənləşdirilmiş qaydada akkreditasiya olunmadan idman mərc oyunlarının təşkil olunduğu aşkarlanıb.

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin qərarı ilə İlqar Abdullayevin fəaliyyət göstərdiyi çayxanada və yaşadığı ünvanda yerləşən mənzilində qanunsuz idman mərc oyunlarının təşkilində istifadə edilən 8 ədəd noutbuk, idman mərc oyunlarının xarici internet saytlarından əldə edilmiş və kağızda çap olunmuş siyahısı, həmin oyunlara qoyulan proqnozlara görə verilən əmsallar barədə qeydlər aşkarlanaraq götürülüb.

İ.Abdullayevin «Bədən tərbiyəsi və idman haqqında» Qanunun və Nazirlər Kabinetinin «İdman mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiya olunması və idman mərc oyunlarının təşkili və keçirilməsi qaydaları» haqqında Qərarının müvafiq maddələrinin tələblərini pozaraq 2011-ci ilin dekabr ayından 2016-cı ilin oktyabr ayınadək idman mərc oyunlarının təşkili nəticəsində 680 min manat, yəni külli miqdarda gəlir əldə etməkdə şübhələr üçün əsaslar olduğundan, faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-1.3.2 maddəsi ilə cinayət işi başlanıb. 21 noyabr 2016-cı il tarixdə İ.Abdullayevə Azərbaycan Respublikası CM-in 192-1.3.2-ci maddəsilə ittiham elan edilib və Yasamal Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Bundan başqa, Sumqayıt Şəhər Məhkəməsinin qərarı ilə Sumqayıt şəhəri, Novxanı «Bağlar» massivində Mehman Yavər oğlu Rüstəmova məxsus bağ evində axtarış-istintaq hərəkəti aparılıb, qanunsuz idman mərc oyunlarının təşkilində istifadə olunmuş 5 ədəd faks aparatı, 18 ədəd prosessor, 1 ədəd yaddaş kartı, 8 ədəd printer, 8 ədəd qumar masası, domino daşları, kartlar aşkar edilərək götürülüb.

Mehman Rüstəmovun «Bədən tərbiyəsi və idman haqqında» Qanunun və Nazirlər Kabinetinin «İdman mərc oyunlarının həyata keçirilməsi məqsədilə hüquqi şəxsin akkreditasiya olunması və idman mərc oyunlarının təşkili və keçirilməsi qaydaları» haqqında Qərarının müvafiq maddələrinin tələblərini pozaraq, 2011-ci ilin noyabr ayından 2016-cı ilin noyabr ayı da daxil olmaqla, idman mərc oyunlarının təşkili nəticəsində 1 milyon manat, yəni külli miqdarda gəlir əldə etməkdə şübhələr üçün əsaslar olduğundan, faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-1.3.2 maddəsi ilə cinayət işi başlanıb. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-1.3.2 maddəsi ilə M.Rüstəmova ittiham elan edilib və Yasamal Rayon Məhkəməsinin qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilib.



Vergilər Nazirliyi bir daha xatırladır ki, qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan, yaxud xüsusi razılıq almadan həyata keçirilən sahibkarlıq fəaliyyəti inzibati və ya cinayət məsuliyyəti yaradır və belə halların qarşısının alınması üçün qanunvericilikdə nəzərdə tutulmuş bütün tədbirlər görüləcəkdir.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Dekabrın 19-20-də iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Polşa Hökumətlərarası Komissiyasının 7-ci iclası Varşavada keçiriləcək.

Çinli iş adamları Qaradağ rayonunda fəaliyyət göstərən sənaye və emal müəssisələri ilə tanış olublar.

Pekində keçirilmiş «Mərkəzi Asiyada bir kəmər, bir yol və sabitlik, inkişaf» mövzusunda keçirilən forumda Bakı Limanı və Azad Ticarət Zonası barədə məlumat verilib.

Ölkəmizdə fəaliyyət göstərən sahibkarların və işgüzar dairələrin nümayəndələri dekabrın 3-4-də Türkmənistanın Aşqabad şəhərində pambıq məhsulları üzrə VI Beynəlxalq sərgi-yarmarkasında iştirak ediblər.

Bu gün Bakı Fond Birjasında Azərbaycan Respublikası Mərkəzi Bankının qısamüddətli notlarının yerləşdirilməsi üzrə hərrac keçirilir.

Dekabrın 9-da Azərbaycan Respublikası Auditorlar Palatasında «Daxili audit və korporativ idarəetmə sistemi» və «Biznesin (müəssisənin) qiymətləndirilməsi» mövzularında seminar keçiriləcək.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin dekabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin dekabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Mədən vergisinin ödənilmə vaxtıdır

Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunda yerin təkindən faydalı qazıntıların çıxarılmasına görə mədən vergisi tutulur. Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi də daxil olmaqla) yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr mədən vergisinin ödəyiciləridir. Mədən vergisi üzrə vergi tutulan əməliyyatın aparıldığı vaxt - faydalı qazıntıların çıxarıldığı vaxt sayılır.

Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hər ay, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq bəyannamə verirlər.

Yerin təkindən çıxarılan faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi onların topdansatış qiymətinə tətbiq edilməklə aşağıdakı kimi müəyyənləşdirilir.

Onu da qeyd edək ki, Vergi Məcəlləsi ilə müəyyən edilmiş 4 bələdiyyə vergisindən biri də yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisidir. Aşağıda göstərilən yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi bələdiyyə büdcəsinə ödənilir:

- kərpic-kirəmit gilləri;
- tikinti qumları;
- çınqıl xammalı.

Fiziki şəxslər və müəssisələr bu tikinti materiallarına görə yerin təkindən çıxarılan hər 1 kubmetr material üçün 1 manat məbləğində vergi ödəyirlər.

Bələdiyyə vergilərinin dərəcələri vergi qanunvericiliyində təsbit edilmiş hədlər daxilində müəyyən olunur. Bununla yanaşı, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcələrini azaltmaq barədə qərar qəbul edə bilərlər. Ancaq bələdiyyələr hansısa vergini artırmaq səlahiyyətlərinə malik deyillər.

Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin bəyannaməsini vergi ödəyiciləri hər ay, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq, bələdiyyələrə təqdim etməlidirlər.

| Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı | Mədən vergisinin dərəcələri (faizlə) |
|---|---|
| Xam neft | 26 |
| Təbii qaz | 20 |
| Filiz faydalı qazıntıları: | |
| - bütün növ metallar | 3 |

**Yerin təkindən çıxarılan aşağıdakı faydalı qazıntıların növündən asılı olaraq, mədən vergisi hər kubmetr üçün müvafiq dərəcələrlə hesablanır:**

| Mədən vergisinə cəlb olunan faydalı qazıntıların adı | Mədən vergisinin dərəcələri (manatla) |
|---|---|
| Qeyri-filiz faydalı qazıntıları: | |
| - seolit | 1 |
| - barit | 1 |
| - mişar daşları | 2 |
| - çınqıl xammalı | 1 |
| - yüngül doldurucular (keramzit, aqloporit) istehsalı üçün gillər | 1 |
| - bentonit gilləri | 1 |
| - kərpic-kirəmit gilləri | 1 |
| - vulkan külü və pemza | 1 |
| - kvars qumları | 1 |
| - tikinti qumları | 1 |
| - sement xammalı (əhəng daşı, mergel, gil, vulkan külü) | 1 |
| - üzlük daşları (mərmər, qabbro, tuflar, travertin, mərmərləşmiş əhəng daşı) | 1 |
| - qiymətli və yarımqiymətli bəzək daşları | 6 |
| - duz | 6 |
| - yodlu-bromlu sular | 0,04 |
| - mineral sular | 10 |

**RƏŞAD**

# Könüllü əməletmə vergi mədəniyyətinin səviyyəsindən asılıdır

Vergilərin dövlət büdcəsinə vaxtında və tam həcmdə ödənilməsi, ilk növbədə, sosial tərəfdaşların dəstəyi ilə könüllü əməletməni təmin etməkdən keçir. Bu, həm də məsuliyyətdən yayınmanın qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır və vergi öhdəliklərinin yerinə yetirilməsi vergi ödəyicisinin ölkənin vergi qanunlarına riayətetmə göstəricisi hesab olunur. Vergilər Nazirliyinin həyata kecirdiyi vergi siyasəti öhdəliklərinin yerinə yetirilməsi üçün təkcə vadaretmə üsullarının (icbari əməletmə) tətbiqinə deyil, xidmətin, könüllü səylərin, ünsiyyətin və maarifləndirmənin genişləndirilməsinə əsaslanır.

İcbari əməletmənin əsas üsulları kameral və səyyar audit, sanksiyalar, əmlakın siyahıya alınması, ölkəni tərk etməyə tətbiq olunan məhdudiyyətlər, bank hesablarına sərəncamların qoyulması və vergi cinayətlərinin istintaqından ibarətdir. Bu vasitələrin tətbiqində başlıca məqsəd yayındırılmış vergilərin dövlət büdcəsinə ödənilməsini təmin etməkdir. Vergilər Nazirliyinin başlıca hədəfi isə könüllü əməletmənin bütün vergi ödəyicilərini əhatə etməsinə nail olmaqdır. Bu məqsədlə ödəyicilərə göstərilən xidmətlərin, xüsusən elektron xidmətlərin əhatə dairəsi genişləndirilir və hazırda nazirlik tərəfindən vergi ödəyicilərinə 63 növ elektron xidmət göstərilir. Könüllü əməletməyə, ödəyicilərə göstərilən xidmətlərlə bərabər, sosial tərəfdaşlıq, birgə layihələrin həyata keçirilməsi də mühüm təsir göstərən amillərdəndir. Sosial tərəfdaşlığın mahiyyəti sahibkarların ictimai təşkilatları, həmkarlar ittifaqları, bələdiyyələr, vətəndaş cəmiyyəti institutları, təhsil müəssisələri ilə vergi orqanı və vergi ödəyicisi arasında birgə səmərəli əməkdaşlıq platformasını möhkəmləndirməkdir. İndiyədək nazirlik özəl vergi məsləhətçiləri, ixtisaslaşdırılmış audit şirkətləri, elmi-tədqiqat institutları ilə əməkdaşlıq haqqında sazişlər imzalayaraq, sosial tərəfdaşlıq münasibətləri qurub. Bu missiyanın həyata keçirilməsində əsas məqsəd vergi mədəniyyətinin yüksəldilməsidir. Bunun üçün məlumatlandırma, maarifləndirmə və təbliğat işinin gücləndirilməsi başlıca prioritetlərdir. Vergilər Nazirliyi vergi qanunvericiliyinin təkmilləşdirilməsi, sahibkarlıq və vergi mühitinin sağlamlaşdırılması, əmək müqavilələri və əmək münasibətlərinin tənzimlənməsi, istehlakçıların hüquqlarının qorunması, nağdsız ödənişlər və POS-terminalların tətbiqi, şəffaflığın təmin edilməsi ilə bağlı dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə birgə müxtəlif layihələr həyata keçirib, təbliğat işinin gücləndirilməsi məqsədilə konfrans və təlimləri davam etdirir. Bələdiyyələrlə birgə yerli vergi ödənişləri ilə bağlı əhalinin maarifləndirilməsi həyata keçirilməkdədir.

Təbliğat və maarifləndirmə sahəsində təhsil müəssisələri ilə əməkdaşlıq da əsas yer tutur və nazirlik bu sahədə xeyli işlər görüb. Gənc nəslə vergi sahəsində zəruri biliklərin aşılanması məqsədilə müxtəlif dərsliklər, dərs vəsaitləri nəşr edilib, orta məktəblərdə 56 metodiki kabinet və vergi tədris otaqları yaradılıb, vergi mövzusunda dərslər, bilik müsabiqələri təşkil olunur.

> Vergilər Nazirliyinin başlıca hədəfi isə könüllü əməletmənin bütün vergi ödəyicilərini əhatə etməsinə nail olmaqdır

Vergi orqanları ilə biznes arasında mövcud əlaqələrin yeni forması kimi korporativ əməletmə mühüm əhəmiyyət daşıyır. Bu model vergi öhdəliklərinin qarşılıqlı maraqlar əsasında qurulmasına təsir göstərmək və mübahisələrin yaranmamasına zəmanət verməklə yanaşı, biznes və vergi orqanlarının yüksək əmələtmə standartlarına nail olmaq prinsiplərinə xidmət edir. Korporativ əməletmənin metodlarına bəyannamələrin qabaqcadan doldurulması, Davranış Kodeksinin qəbul edilməsi və Partnyorluq sazişi daxildir. Sosial tərəfdaşlıq mahiyyət etibarilə ölkədə biznesin və sahibkarlığın inkişafına, sağlam rəqabət mühitinin formalaşmasına, sahibkarların fəaliyyətinə əsassız müdaxilə imkanlarının azaldılmasına xidmət edir.

İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin rəhbəri Ruslan Atakişiyev qeyd edib ki, adətən, sahibkarlar iqtisadi biliklərinin zəif olması səbəbindən, teztez problemlərlə üzləşirlər. Onun fikrincə, sahibkarlar özlərinin ictimai təşkilatlarının sayını çoxaltmalıdırlar. Sosial tərəfdaşlığın spektri genişləndirilməli, sahibkarların ictimai assosiasiyaları müntəzəm olaraq təlim və seminarlar təşkil edərək İqtisadiyyat və Sənaye, Vergilər, Maliyyə nazirliklərinin mütəxəssislərinin iqtisadi yeniliklər haqqında fikir və məlumatlarını mənimsəməlidirlər. Sahibkarların ictimai qurumları vergi ödəyicilərinə elektron xidmətlərdən istifadənin öyrənilməsində də yardımçı ola bilərlər. Könüllü vergi ödəyiciləri ilə vergidən yayınan sahibkarlar arasında körpü yaratmaq lazımdır ki, onlar intizamlı vergi ödəyicilərindən nümunə götürsünlər.

Milli QHT Forumunun rəhbəri Rauf Zeyni vergi təbliğatının artırılması üçün dövlət qurumları ilə ictimai sektor arasında ictimai şuraların yaradılmasını təklif edir: «Vergi mədəniyyətinin yüksəldilməsi üçün vergi orqanları və sahibkarların ictimai təşkilatları, vətəndaş cəmiyyətləri institutları ilə bərabər, təhsil-tədris müəssisələrində çalışan hər bir pedaqoji işçinin bu prosesdə fəal olması çox vacibdir. Orta məktəblərin ibtidai siniflərindən başlayaraq, insanlara vergi ödəmək mədəniyyəti aşılanmalıdır. Həmçinin məktəb bufetlərində kassa aparatlarının, POS-terminalların qoyulması və şagirdlərin dərsdən sonra həmin qurğulardan istifadə etməklə bu ödəmələrin məqsədi haqqında məlumatlandırılmaları səmərəli nəticə verər. Bu yolla uşaqlara vergi ödəmək mədəniyyətini mənimsətmək mümkündür və onlarda vergi haqqında müsbət fikirlərin formalaşması üçün praktiki vasitələrin tətbiqi məqsədəuyğundur».

**R. SADIQOV**

# Dönüş nöqtəsi

Prezident İlham Əliyev Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb. İlkin mərhələdə bu ərazilərdəki dövlət səhiyyə sisteminə daxil olan qurumlar (Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin şöbələri, sanitariya və epidemioloji xidmət, əczaçılıq və tibbi təhsil müəssisələri, habelə psixonevroloji və narkoloji dispanserlər istisna olmaqla) fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş pilot layihə başa çatanadək Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tabeliyinə verilir. Səhiyyə Nazirliyinə isə pilot layihənin həyata keçirilməsi nəzərdə tutulan inzibati ərazilərdə icbari tibbi sığortanın baza zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri, habelə sığorta haqqının məbləği ilə bağlı təkliflər, eləcə də həmin ərazilərdə icbari tibbi sığortanın baza zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin siyahısı və tarifləri ilə bağlı təkliflərini iki ay ərzində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi tövsiyə olunub. Pilot layihənin 2017-ci il yanvarın 1-dən həyata keçirilməsi təmin olunmalıdır.

Fərmanın icrası çərçivəsində yaradılacaq elektron portal bunları əhatə edəcək:

- icbari tibbi sığortanın pilot layihə çərçivəsində həyata keçirilməsi məqsədilə icbari tibbi sığortaya cəlb olunmaq üçün tələb edilən sənədlərin siyahısı;
- icbari tibbi sığortanın şərtləri barədə, icbari tibbi sığortaya cəlb olunan əhali, tibb müəssisələri və tibb işçilərinə dair, icbari tibbi sığorta çərçivəsində əhaliyə göstərilən tibbi xidmətlərə dair, eləcə də fərmanın 7.1-7.8-ci bəndlərində nəzərdə tutulmuş məlumatlara dair baza;
- icbari tibbi sığorta çərçivəsində tibb müəssisələri tərəfindən göstərilən xidmətlər üzrə maliyyələşmənin, əhalinin sığortalanma prosesinin və qeydiyyatının elektron qaydada həyata keçirilməsini icbari tibbi sığortaya dair tibbi statistikanın elektron qaydada aparılması;
- sığortalanma, tibbi xidmətlərin həyata keçirilməsi və tibb müəssisələrinə ödənişlər üzrə elektron hesabatların hazırlanması;
- monitorinq və nəzarət.

Vətəndaşların səhiyyə xərclərinin azalmasına, işsiz insanların səhiyyə xidmətlərindən yararlanmasına kömək göstərəcək tibbi sığorta, eyni zamanda, həkim və xəstə arasında qeyri-leqal ödəniş problemini də aradan qaldıracaq



İqtisadçi ekspert Vüqar Bayramov icbari tibbi sığorta zamanı dövlətin rolu və vətəndaşların vəzifələrinin müəyyənləşməsində pilot layihənin böyük rol oynayacağını qeyd edib: «Vətəndaşların səhiyyə xərclərinin azalmasına, işsiz insanların səhiyyə xidmətlərindən yararlanmasına kömək göstərəcək tibbi sığorta, eyni zamanda, həkim və xəstə arasında qeyri-leqal ödəniş problemini də aradan qaldıracaq. Artıq həkimlər müraciət edən xəstənin sığorta kartı vasitəsilə qonorar alacaq. Əhalinin sosial müdafiəsi forması olan icbari sığortanın tətbiqi üçün İcbari Tibbi Sığorta fonduna üç mənbədən - dövlət büdcəsi, işəgötürənlər və işləyən vətəndaşlardan vəsait daxil olmalıdır. İlkin şərtlərə görə, əmək qabiliyyətli hər bir vətəndaş icbari tibbi sığorta fonduna ayda orta hesabla 5-10 manat, işəgötürənlər hər işçiyə görə 10-12 manat ödəyəcək. Əhalinin bir hissəsi isə icbari sığorta haqqı ödəməkdən azad olacaq».

Sığorta üzrə mütəxəssis Xəyal Məmmədxanlının fikrincə, pilot layihələrin uğur gətirməsi üçün səhiyyə sistemində fəaliyyət göstərən bütün tibb müəssisələri, xəstəxanalar, klinikalar şəffaf fəaliyyətə keçməli, idarəetmə sistemlərini təkmilləşdirməli, göstərdikləri xidmətlər üçün rəsmi qiymətlər müəyyən etməlidirlər: «Özəl tibb müəssisələrinin bir çoxunda bunlar mövcuddur, dövlət xəstəxanaları və müəssisələri isə bundan xeyli uzaqdırlar, xüsusilə də bölgələrimizdə bununla bağlı ciddi problemlər hökm sürür. İcbari tibbi sığorta səhiyyənin maliyyələşdirilməsinin ən ideal və proqressiv yoludur. Bu qanun nə qədər tez tətbiq edilərsə, dövlət büdcəsindən səhiyyəyə ayrılan və bir çox hallarda aqibəti məlum olmayan vəsaitlərə də o qədər qənaət edilər, səhiyyə təşkilatlarının xidmət səviyyəsi də azad rəqabət mühitində gündən-günə yüksələr. Ölkənin bütün regionlarında müasir tələblərə cavab verən müalicə-diaqnostika mərkəzləri, klinikalar var. Yeni tikilən və əsaslı təmir olunan tibb müəssisələrinin də müasir avadanlıqlarla təminatı yüksək səviyyədədir. Eyni zamanda, ölkədə kifayət qədər kadr potensialı möcuddur. Bu baxımdan, icbari tibbi sığortanın tətbiqi ilə bağlı maneələr artıq aradan qaldırılıb».

X.Məmmədxanlının sözlərinə görə, bu xidmətin tətbiqi sayəsində səhiyyə müəssisələri ilə xəstələr arasında «məbləğ» və «məzənnə» söhbətlərinə son qoyulacaq: «Sistemin digər ən böyük effekti insanların istənilən anda maliyyə sıxıntısı çəkmədən müalicə oluna bilməsidir. Qanun icra edildikdən sonra hər kəsin tibbi sığortası olacaq ki, bu da ümumilikdə əhalinin sağlamlaşdırılmasına, ölkənin rifahına gətirib çıxaran amildir». Sığorta eksperti icbari tibbi sığortanın tətbiqinin Azərbaycanın sığorta bazarına müsbət təsiri barədə bildirmişdir ki, fərman sığorta bazarının həcmini böyüdəcək, sığorta şirkətlərinin bu sahədəki peşəkarlığını, eləcə də sığorta haqlarını artıracaq. Bu isə həm sığortanın inkişafına səbəb olacaq, həm də səhiyyə sektorunda canlanmaya səbəb olacaq.

**F. İKRAMQIZI**

# Vergi mübahisələri ədalətli həll olunur

## «PwC Azərbaycan» biznes nümayəndələri üçün seminar keçirib

«Vergi mübahisələri və meqa-tendensiyalar» mövzusuna həsr olunmuş seminarda 100-dən çox biznes nümayəndəsi və vergi-hüquq sahəsi üzrə ekspertlər iştirak ediblər. Tədbirdə fikir və təkliflərlə çıxış edən biznes nümayəndələri onların hüquq və mənafelərinin etibarlı müdafiəsi, şikayətlərin obyektiv və ədalətli şəkildə araşdırılması, mübahisələrə səbəb olan halların aradan qaldırılması üçün inzibatçılığın təkmilləşdirilməsi, bəzi prosedurların sadələşdirilməsi və s. təkliflərlə çıxış ediblər.

«PWC Azərbaycan» şirkətinin vergi məsələləri üzrə direktoru Arif Quliyev bildirib ki, vergi mübahisələri, adətən, vergi qanunvericiliyinin tələblərinə düzgün əməl etməmək, yaxud sahibkar tərəfindən vergi orqanlarının tələbləri ilə razılaşmamaq səbəbindən yaranır. Dünyada vergi ödəyiciləri ilə vergi orqanları arasında vergi mübahisələrinin daha çox üç əsas motivi müşahidə edilir:

- vergitutma obyektinin müəyyən edilməsi;
- vergilərin hesablanmasına və ödənilməsinə vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi;
- vergi ödəyicilərinə qarşı məsuliyyət tədbirlərindən yaranan mübahisələr.

Ölkəmizin vergi sistemində aparılan islahatlar vergi ödəyicilərinin hüquqlarının qorunmasına və vergi mübahisələrinin ədalətli şəkildə həllinə imkan verir. Araşdırmalar göstərir ki, iqtisadi mahiyyətli mübahisələrin şəffaf və obyektiv şəkildə həlli biznes sektorunun da inamını artırır. A.Quliyevin sözlərinə görə, əvvəllər öz hüquqlarının məhkəmə orqanlarında qorunmasına ümidsiz yanaşan biznes nümayəndələri indi mübarizlik və fəallıq nümayiş etdirməklə mübahisələrin obyektiv şəkildə araşdırılıb qərar çıxarılmasına nail olurlar: «2016-cı ilin ilk 9 ayının göstəricilərinə əsasən, vergi ödəyiciləri tərəfindən vergi orqanlarına qarşı qaldırılmış iddiaların böyük qismi sahibkarların xeyrinə həll olunub. Vergilər Nazirliyində fəaliyyət göstərən Vergi Apelyasiya Şurasında baxılmış iddiaların 44%-i, birinci instansiya məhkəməsində 35%-i, Apelyasiya Məhkəməsində 57%-i, Ali Məhkəmədə isə 52%-i tamamilə və ya qismən vergi ödəyicilərinin xeyrinə həll edilib. Bu onu göstərir ki, ictimaiyyət arasında məhkəmələrin vergi ödəyicilərinin xeyrinə qərar çıxarmaması barədə dolaşan şayiələrin heç bir əsası yoxdur, vergiyə dair məhkəmə işlərində ədalətlilik prinsipi qorunur. Xüsusilə də Vergilər Nazirliyində yaradılmış Vergi Apelyasiya Şurası şikayətlərə baxılmasına nəzarətin gücləndirilməsinə xidmət edir. Bu qurum mübahisəli vergi məsələləri üzrə çıxarılmış qərarlardan məhkəməyə şikayətin verilməsinə sərf olunan inzibati xərclərin və vaxt itkisinin qarşısının alınması, vergi mübahisələrinin məhkəməyə qədər obyektiv şəkildə həll edilməsi baxımından çox mühüm rol oynayır».



A.Quliyev qeyd edib ki, hazırda əsas problemlərdən biri məhkəmələrdə vergi qanunvericiliyini dərindən bilən, bu sahə üzrə sırf ixtisaslaşmış hakimlərin olmamasıdır. Onların bilik və təcrübələri ümumi iqtisadi hüquqpozmalar sahəsində formalaşıb, vergi məsələlərini yaxşı bilmədiklərindən mübahisələrin araşdırılması və qərar çıxarılması çətinlik yaradır. Ona görə də vergi ilə bağlı məhkəmə işlərinə bu sahəni dərindən bilən peşəkar mütəxəssislərin cəlb olunmasına ciddi ehtiyac var.

«PWC Azərbaycan» şirkətinin vergi və hüquq məsələləri üzrə partnyoru Maykl Ahern bildirib ki, vergi mübahisələri və vergi ödəyicilərinin məhkəmələrə cəlb olunması bütün dünya ölkələri üçün xarakterikdir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında yaranan mübahisələrin sayının çoxalması, ilk növbədə, vergitutma mexanizminin mürəkkəbliyi, vergi qanunvericiliyinin təkmilləşdirilməsinin lazımi səviyyədə olmaması, maliyyə sanksiyalarının məhkəmə qaydasında həyata keçirilməsi ilə bağlıdır. Mübahisələrin böyük qismi vergi ödəmələrinə əməletmənin yaxşı təşkil olunmamasından irəli gəlir, bir qismi isə sənədlərin mürəkkəb və çox olması səbəbindən yaranmış texniki xarakterli mübahisə predmetidir. Dünyanın bütün vergi administrasiyaları son 15 ildə qlobal səviyyədə böyük dəyişikliklərin baş verməsinə nail olub. Vergi mübahisələrinin vergi ödəyicilərinin xeyrinə həll edilməsi imkanları olduğuna görə, onların bu prosesdə iştirakı vacibdir. Əvvəllər vergi ödəyiciləri aqressiv vergi strukturları tətbiq edə bilirdilər və bu, müəyyən dərəcədə norma sayılırdı. Müasir dünyada isə şəffaflıq daha güclüdür və vergi strukturları kommersiya reallığına əsaslanırlar. Digər müsbət cəhət də əvvəlki dövrlərlə müqayisədə vergi ödəyiciləri və orqanları arasında etibarlı, şəffaf və texnologiyaya əsaslanan qarşılıqlı münasibətlərin olmasıdır.

Qazaxıstanın vergi və hüquq məsələləri üzrə mütəxəssisi Dana Tokmurzina bildirib ki, sahibkarlar bir çox hallarda apelyasiya qurumlarına vergi yoxlamaları ilə bağlı işlər inzibati, iqtisadi və yuxarı məhkəmələrə gedib çıxdıqdan sonra şikayət edirlər. Belə vəziyyətdə mübahisələri araşdırmaq, müvafiq nəticə əldə etmək çətinlik yaradır. Vergi ödəyiciləri çalışmalıdırlar ki, mübahisə doğuran hallar ilkin mərhələdə həll olunsun və bu zaman tanınmış vergi-hüquq müdafiəçilərinin, arbitrajların köməyindən istifadə etmək olar.

Qazaxıstanlı mütəxəssis qeyd edib ki, bir çox hallarda vergi mübahisələrinin məhkəməyə müraciət olunmadan vergi orqanları səviyyəsində, yaxud Vergi Apelyasiya Şurasında tam ədalətlə həll olunur. Ona görə də Apelyasiya şuralarının rolunun yüksəldilməsi, orada iqtisadi strukturların, ictimai təşkilatların nümayəndələrinin təmsilçiliyinin artırılması məqsədəuyğundur. Bununla yanaşı, Avropada geniş yayılmış Arbitraj Məhkəməsinin yaradılması da məqsədəmüvafiq hesab edilə bilər: «Qazaxıstanda iqtisadi xarakterli işlərin əksər hissəsi bu məhkəmələrdə həll olunur. Hökumət belə bir strukturun formalaşmasına qərar versə, həmin məhkəmələr vergi, maliyyə sahələri üzrə işlərə baxar, nəticədə hazırkı məhkəmələrdə meydana çıxan vəziyyətlər aradan qalxmış olar. Bununla yanaşı, ölkədə fəaliyyət göstərən Sığorta Ombudsmanının iş təcrübəsini nəzərə alıb vergi administrasiyalarında da belə bir institutun formalaşdırılması nəzərdən keçirilir».

**E. CƏFƏRLİ**

## vergi təqvimi

| DEKABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | **4** |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | **11** |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | **18** |
| 19 | **20** | 21 | 22 | 23 | 24 | **25** |
| 26 | 27 | 28 | 29 | 30 | **31** | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 dekabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqlarını ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

# Macarıstan Avropa İttifaqının «vergi limanı» olmaq yolundadır

Ölkənin Baş naziri Viktor Orban bu məqsədə nail olmaq üçün birbaşa xarici investisiyaların axınını gücləndirməyi planlaşdırır. Macarıstanda yeni vergi dərəcəsi hətta hazırda Aİ-nin ən cəlbedici «vergi limanı» olan İrlandiyadan (orada 12,5%-dir) da aşağı olacaq. Analitiklər bu fikirdədirlər ki, hökumətin belə bir addım atması kütləvi şəkildə başqa ölkələrə də yayıla bilər.

Hazırda Macarıstanda illik gəliri 1,74 milyon dollardan aşağı olan hüquqi şəxslərdən vergi 10%, bu həddən yuxarı olanlardan isə 19% dərəcə ilə tutulur. Hökumətin vədinə görə, gələn ildən şirkətlər vergini vahid dərəcə üzrə ödəyəcəklər. İqtisadçıların qiymətləndirməsinə görə, bu dəyişiklikdən illik gəliri 2 milyon avrodan artıq olan orta şirkətlər qabağa düşəcəklər. İri xarici şirkətlər, xüsusilə də Almaniya avtokonsernləri artıq Macarıstandakı sanballı vergi güzəştlərindən və subsidiyalardan istifadə edirlər. Hökumət əməkdaşların təhsilinə sərmayə qoyan, eləcə də elmi-tədqiqat və təcrübə-konstruktor işləri ilə məşğul olan şirkətlərə verdiyi güzəştləri artırmaqla yanaşı, fiziki şəxslərin gəlirindən hazırda 15%-lə tutulan vergini, habelə əməkhaqqı fonduna qoyulmuş verginin dərəcəsini azaltmaq niyyətindədir.

Ümumdünya İqtisadi Forumunun rəqabətqabiliyyətlilik reytinqində Macarıstan 2015-2016-cı illər üzrə 63-cü yerdə olub və Polşa, Çexiya, Rumıniya kimi ölkələrdən geridədir. Gözlənildiyinə görə, 2016-cı ildə Macarıstanda ÜDM 2,1%, 2017-ci ildə isə 2,6% artacaq ki, bu göstəricilər də Avropa İttifaqındakı orta artımı üstələyir.




# Yüksək maaş alanlar Fransanı tərk edirlər

Fransa parlamentinin maliyyə komitəsinin yeni hesabatında bu məsələ xüsusilə vurğulanır. Araşdırmanın gedişində 4 mindən artıq ev təsərrüfatında sorğu aparılmışdır. Bu təmayül illik gəliri sabit şəkildə 100 min avrodan artıq olan ailələr arasında 2007-ci ildən yaranıb. 2013-2014-cü illərdə ölkədən illik gəliri 300 min avrodan yüksək olan 1200 ailə köçmüşdü. Bundan əlavə, hər il 700 min avrodan artıq pul qazanan 130 vətəndaş da öz ölkəsi ilə vidalaşmışdır.

Ekspertlər hesab edirlər ki, «milyoner axınının» səbəblərindən biri ölkədə tətbiq olunan zənginlik vergisidir. 75%-ə çatan bu vergini 2012-ci ildə maliyyə böhranının nəticələrinin aradan qaldırılması üçün Fransua Ollandın rəhbərlik etdiyi hökumət tətbiq etmişdi. İki ildən sonra işgüzar dairələrin təkidi ilə zənginlik vergisinin dərəcəsi 50%-ə endirildi.

Əlbəttə, varlı fransızların öz ölkələrini tərk etmələri üçün vergi yeganə səbəb deyil. Rəyi soruşulanlardan bəziləri ölkədən köçməyi ailə vəziyyəti, yeni iş tapmaq kimi şərtlərlə əlaqələndirmişlər. Əksəriyyət də vurğulamışdır ki, bu qərarın qəbul edilməsinə zənginlik vergisinin yüksək olması təkan vermişdir. Fransa emiqrantlarının daha çox üz tutduqları ölkələr isə Belçika, İsveçrə, Böyük Britaniya və ABŞ-dır.

# Kanada offşorlarla mübarizə aparacaq

Ölkənin vergi agentliyi offşorlara qarşı mübarizə üzrə yeni bir proqram həyata keçirməyə hazırlaşır. Vergidən yayınmaya qarşı hazırda mövcud olan sxemlərdən imtina edilərək 10 min dollardan yuxarı elektron pul köçürmələri üzərində nəzarət qoymaq planlaşdırılır. Bu il Kanadadan dörd offşor zonaya pul köçürmələri xüsusi nəzarət altında olmuşdur.

Vergi agentliyi öz diqqətini ilk növbədə Men və Normann adalarında yerləşən offşor zonalara yönəltmişdir. Artıq bu ərazilərə pul köçürmələrinin nəzərdən keçirilməsi başa çatdırılmışdır, adı çəkilməyən iki offşor zonadakı vəziyyətə baxılması isə 2017-ci ilin martına qədər davam edəcək.

Kanadanın vergi agentliyi ümumi məbləği 7 milyard dollara çatan 20 min pul köçürülməsinin yoxlamasını aparmışdır, həmçinin şübhə doğuran 166 vergi ödəyicisi üçün audit müəyyənləşdirmiş və həyata keçirməyə başlamışdır. Agentlik offşorlardan istifadə edənlərin hamısına xaricdə əldə etdikləri gəlirlərə bağlı bəyannamə təqdim etmək barədə məktub göndərir.

# Almaniya Böyük Britaniyanın vergiləri kəskin şəkildə aşağı salacağından ehtiyatlanır

Almaniyanın maliyyə naziri Volfqanq Şoyble bildirmişdir ki, Böyük Britaniya hələ Avropa Birliyinin üzvüdür və korporativ vergini kəskin şəkildə azaltmağa ixtiyarı yoxdur. Bəzi ehtimallara görə, Britaniya bu verginin dərəcəsini 15%-dək aşağı salmağı planlaşdırır.

Nazir qeyd etmişdir ki, Britaniya korporativ verginin dərəcəsini kəskin şəkildə aşağı salmaqla dempinqlə məşğul olmamalıdır: «Böyük Britaniya hələ Avropa İttifaqının üzvüdür və Avropa qanunlarına tabedir». V.Şoyble xatırlatmışdır ki, London 2015-ci ildə Türkiyənin Antalya şəhərində keçirilmiş sammit zamanı öz üzərinə belə bir öhdəlik götürmüşdür. Bundan əvvəl isə Böyük Britaniyanın Baş naziri Tereza Mey Birləşmiş Krallığın Avropa İttifaqını tərk etməklə bağlı keçirdiyi referendumdan sonra korporativ verginin dərəcəsini aşağı salmaqla iqtisadi artımın aşağı düşməsinin qarşısını almaq niyyətində olduğunu bildirmişdi.

Hökumət tərəfindən təqdim olunmuş plana əsasən, 2020-ci ilə qədər korporativ verginin dərəcəsinin G20 ölkələri arasında ən aşağı səviyyəyə - 20%-dən 17%-ə endirilməsi nəzərdə tutulurdu.

Bununla yanaşı, ekspertlərin rəyinə əsasən, ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Trampın müvafiq qərarından sonra Böyük Britaniyanın Baş naziri korporativ verginin dərəcəsinin 15%-ə endirilməsini də nəzərdən keçirə bilər. Britaniya Sənayeçiləri Konfederasiyasının konfransındakı çıxışında Baş nazir qeyd etmişdir ki, Avropa İttifaqından çıxmaq Böyük Britaniya iqtisadiyyatı üçün ciddi məsələdir.

Bütün bunlara baxmayaraq, ölkənin Avropa Birliyindən çıxmaq qərarından sonra hökm sürən tərəddüd əhval-ruhiyyəsi hələlik iqtisadiyyatın inkişafına mənfi təsir göstərməmişdir və Böyük Britaniyada ÜDM 0,5% artmışdır.

# Vergi əfvinin yeni sxemi təklif edilib

Hindistan hökuməti vergidən yayınan şəxslər üçün vergi əfvinin yeni sxemini elan etmişdir. Bu addımın atılması iri əskinazların dövriyyədən çıxarılmasından sonra kölgə iqtisadiyyatı ilə mübarizənin növbəti mərhələsi olacaq. Özlərinin bəyan etmədiyi gəlirlərindən 50% həcmində könüllü cərimə ödəyən şəxslərə qarşı hökumət məhkəmə təhqiqatına başlamağa hazırdır. Əks halda, Hindistanın hüquq-mühafizə orqanları həmin vergi ödəyicilərinə 85% cərimə kəsə bilər.

50%-lik cəza müxtəlif vergi növlərini, yığımları və rüsumları əhatə edir. Bundan əlavə, vergi ödəməkdən yayınan şəxslər bəyan etmədikləri gəlirlərinin 25%-ni dörd il müddətinə depozit hesabına köçürməlidirlər. Bu hesabların üzərinə faiz gəlməyəcək.

Hökumət hesab edir ki, bu cür tədbirlərə əl atılması vergidən yayınan insanların gəlirlərinin kölgədən çıxmasına kömək edə, əldə olunan kapital isə ölkə iqtisadiyyatının inkişafına yönəldilə bilər.

## Xəbər lenti

**İtaliya**da vergilərə aid məlumatların könüllü açıqlanması proqramına təkrar başlanılması barədə parlament yekun qərar çıxarmışdır. Noyabrın 30-da başa çatmış ilkin proqram sayəsində dövlət büdcəsinə 4 milyard avro əlavə vəsait cəlb edilmişdir.

**İsveçrə** hökumətinin vergi məlumatlarının avtomatik mübadiləsi barədə qərarı 2017-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

**Honkong**un təhlükəsizlik məsələləri üzrə katibi Lay Dun Kvok demişdir ki, hökumət ölkənin quru yolları ilə səyahət edən və Çinin materik hissəsində bir gündən az qalanlar üçün hər hansı vergi və ya yığım tətbiq etmək niyyətində deyil.

**Rusiya**nın Baş nazirinin müavini xanım Olqa Qolodes bildirmişdir ki, vergitutmanın hamar proqressiv şkalaya keçirilməsi yuxarı instansiyalarda müzakirə edilir. Baş nazirin birinci müavini İqor Şuvalov isə məsələyə aydınlıq gətirərək demişdir ki, 2018-ci ilin ortalarına qədər ölkə vətəndaşlarının əməkhaqqının vergi tutulmağa aid baza göstəricisində heç bir dəyişiklik edilməyəcək.

**Ukrayna**da yeni yaradılmış hüquqi şəxslərin vergi ödəyicisi kimi qeydiyyatı sadələşdirilə bilər. İqtisadi İnkişaf Nazirliyinin hazırladığı qanun layihəsinə əsasən, hüquqi şəxs dövlət qeydiyyatı ilə bağlı müvafiq bəndi seçməklə ya sadələşdirilmiş vergi, ya da ƏDV ödəyicisi olmaq seçimini edə bilər.

**Ümumdünya Ticarət Təşkilatı** (ÜTT) ABŞ-ın Vaşinqton ştatının «Boeing» hava yolları şirkətinə vəd etdiyi milyardlarla dollar məbləğində vergi güzəştlərini qeyri-qanuni hesab etmişdir. Bildirilmişdir ki, bu cür vergi siyasəti ÜTT-nin antiinhisar qaydalarına ziddir.

# İnkişaf etmiş ölkələrdə vergi daxilolmaları artır

Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkələrində keçənilki rekord göstəricidən sonra vergi daxilolmaları artmaqda davam edir. OECD-nin hesabatına görə, yığılan vergilərin böyük əksəriyyətini maaşlardan tutulan məbləğlər və istehlak vergisi təşkil edir. OECD ölkələrində vergilərin ÜDM-ə nisbətinin orta göstəricisi 2014-cü ildə 34,3% olduğu halda, 2015-ci ildə 34,3-ə qədər artmışdır. Bu, OECD-nin hesabat hazırlamağa başladığı 1965-ci ildən bəri ən yüksək göstəricidir. Ümumiyyətlə, OECD-yə özv olan 32 ölkədən 25-də artım müşahidə olunmuşdur. Araşdırma nəticəsində məlum olmuşdur ki, OECD ölkələrində vergi daxilolmalarının ən böyük mənbəyi ƏDV-dir. 2014-cü ildə ƏDV ÜDM-in 6,8%-nə, ümumi vergi daxilolmalarının isə 20,1%-nə bərabər idi. Fiziki şəxslərin gəlir vergisindən daxilolmalar 2014-cü ildə cəmi yığılmış vergilərin 24%-i qədər olmuşdur, böhrandan əvvəlki - 2007-ci ilin göstəricisi isə 23,7% idi. Böhrandan əvvəl (2007-ci il) ümumi vergi yığımlarında 11,2% təşkil edən korporativ verginin payı isə 2014-cü ildə 8,8% olmuşdur.

Yığılmış verginin ÜDM-ə nisbətən ən böyük artımı 2014-cü illə müqayisədə 2015-ci ildə Meksikada və Türkiyədə olmuşdur. Bu göstərici İrlandiyada, Danimarkada, İslandiyada və Lüksemburqda əhəmiyyətli dərəcədə azalmışdır.



## krossvord

**Yuxarıdan aşağı:** 1.Üç mindən artıq patent sahibi olan, teleqrafı, telefonu, kino aparatını təkmilləşdirmiş, fonoqrafı kəşf etmiş dünya şöhrətli amerikalı ixtiraçı və sahibkarın soyadı; 2.Şimali Avropada dövlət; 3.Ukrayna və Moldova ərazisində çay. Dunayın qolu; 4.Qəbələ rayonunda kənd; 5.Canavar cinsinə aid heyvan yarımnövü; 6.Böyük ensiklopediyaçı alim. Tarix, etnoqrafiya, riyaziyyat və s. elm sahələrinə aid 150-dən çox əsərin müəllifi; 9.Şabran rayonunda kənd; 13.Veksel zəmanəti; 15. Təzyiqi ölçmək üçün cihaz. Barometrin növü; 16.Qırğız və rus dillərində yazmış məşhur qırğız yazıçısı; 17.Braziliyada şəhər; 18.Küləyin dənizin dalğalanmasına olan təsirinə görə gücünü (sürətini) təqribi müəyyən edən, dünya meteorologiya təşkilatı tərəfindən qəbul olunmuş (bal ilə) şkala; 20.Tibdə bir nəfərin digərinə öz qanını və ya orqanlarından birini verən şəxs; 21.İspaniyanın şimalında çay.

**Soldan sağa:** 1.Qədim Yunanıstanda meydana gələn fəlsəfi cərəyan. Bir-birinə zidd fikir və nəzəriyyələrin prinsipsiz və mexaniki surətdə birləşdirilməsi; 5.Dəniz, çay, kol və s. suyunun altındakı torpaq səthi; 7.Qiymətli kağız növü; 8. Fransalı rəssam, XIX əsr Avropa akademizminin hamı tərəfindən qəbul olunan lideri; 10.İspaniyada çay; 11.Neft emalı zamanı alınan məhsullardan biri; 12.Azərbaycanın qədim milli zərb aləti; 14.Fironların nəhəng məqbərəsi;19.ABŞ-da ştat; 21.Sakit okeanda ada; 22.Belçikada şəhər. Orta əsrlərdə paltar ticarətinin mərkəzi və Avropanın Parisdən sonra ən böyük şəhəri olmuşdur; 23.Rusiya Federasiyasında vilayət və eyniadlı şəhər; 24.Kəlbəcər rayonunda kənd; 25.Ürək xəstəliyi.



Fonoqraf - dünya şöhrətli amerikalı ixtiraçı və sahibkar tərəfindən icad olunan ilk səsyazma cihazı

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kramme; 2.Laləzar; 3.Yaqut; 4.Orissa; 5.Klaprot *(Martin Haynriş)*; 6.Pətək; 7.Şevron; 13.Kann; 15.Mironov *(Andrey)*; 16.Heksan; 17.Kleyst *(Henrix)*; 18.«Pravda»; 20.Girov; 21.Bazar. **Soldan sağa:** 1.Kaleydoskop; 8.Alleqri; 9.Aktiv; 10.Mazut; 11.Sirokko; 12.Triko; 14.Ştamp; 19.Evgenol; 21.Berar; 22.Sera *(Corc Pyer)*; 23.Ryazanov *(Eldar)*; 24.Növ; 25.Kotirovka.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Tələbələrin yarışı keçirilib

**Azərbaycan Velosiped İdmanı Federasiyası və ADA Universitetinin birgə təşkilatçılığı ilə Respublika Velotrekində adıçəkilən təhsil müəssisəsinin tələbələri arasında velosiped yarışı təşkil edilib. Yarışda hər birinin tərkibində 3 oğlan və 1 qız tələbə olan 14 komanda iştirak edib.**



Yarış başlamazdan əvvəl tələbələr Respublika Velotrekində idmançılar üçün yaradılan şərait, həmçinin Azərbaycan və dünya velosipedinin tarixini özündə əks etdirən muzeylə tanış olublar.

Estafet sistemi üzrə keçirilən yarışda hər komandanın tərkibində yer alan velosipedçilər 333 metrlik marşrut boyunca dövrə vurublar və ən yaxşı vaxt göstəricisinə əsasən qaliblər müəyyənləşib. Fərqlənən komandalar Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən diplom və kubokla təltif ediliblər.

# Avropa çempionatında bürünc medal




İsrailin Eylat şəhərində 20 və 23 yaşadək idmançılar arasında ağır atletika üzrə Avropa çempionatı davam edir. Dekabrın 10-dək davam edəcək yarışda Azərbaycan yığma komandası da mübarizə aparır.

Çempionatda 56 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxan Kənan Xəlilov 20 yaşadək idmançılar arasında qitə birinciliyinin bürünc medalına sahib olub.

Atletimiz birdənqaldırma hərəkətində yaxşı çıxış edib. O, üçüncü yanaşmasında 110 kiloqramı ram edərək bütün rəqiblərini üstələyib. Bir müddət əvvəl Azərbaycan kubokunun sahibi olan K.Xəlilov təkanla qaldırma hərəkətində 118 kiloqramı başı üzərinə qaldıra bilib.

# Liderlər akademiyasının seminar-müşavirəsi

Bakıda keçirilən Azərbaycan Xüsusi Olimpiya Komitəsinin liderlər akademiyasının seminar-müşavirəsində Avrasiyanın 40-dan çox ölkəsindən nümayəndələr, deputatlar və idman xadimləri iştirak edirlər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov əqli imkanları məhdud olan şəxslərin cəmiyyətə inteqrasiyasında xüsusi olimpiya hərəkatının rolunu yüksək qiymətləndirib. Bildirib ki, hazırda Azərbaycanda əhalinin 6, dünya əhalisinin isə 15 faizi əqli imkanının məhdudluğu səbəbindən xüsusi qayğıya ehtiyac duyur. Respublikamızda bu istiqamətdə tədbirlər ildən-ilə artır. Son illər Azərbaycan Olimpiya və Paralimpiya oyunlarında böyük nailiyyətlər qazanıb. Dövlətimizin başçısının tapşırığına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu istiqamətdə Azərbaycan Xüsusi Olimpiya Komitəsinə fəal dəstək göstərir. Bu sahədə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın diqqət və qayğısı mühüm rol oynayır. Əqli imkanları zəif olan insanlar hazırda xüsusi yardımçı məktəblərdə, əmək müəssisələrində tam qayğı ilə əhatə olunur və Olimpiya bayrağı altında ən mötəbər yarışlarda iştirak edirlər.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, Azərbaycan Xüsusi Olimpiya Komitəsinin sədri Şahin Əliyev təşkilatın uğurlarının Prezident İlham Əliyevin idmana diqqət və qayğısı sayəsində əldə edildiyini vurğulayıblar. Çıxışlarda, həmçinin Azərbaycan komandalarının xüsusi olimpiya oyunlarında qazandıqları uğurlar barədə məlumat verilib.

BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvard, Avropa Xüsusi Olimpiya Komitəsinin prezidenti Devid Evangines də bu humanist hərəkatın dünya miqyasında rəğbətlə qarşılandığını qeyd edərək Azərbaycanda görülən işləri yüksək qiymətləndiriblər.

# Beynəlxalq Könüllülər Günü qeyd olunub

Azərbaycanın dörd böyük könüllülük proqramının nümayəndələri ölkəmizdə könüllülük xidmətinə maraq oyatmaq və bu sahə üzrə fəaliyyət göstərən müxtəlif təşkilatlar arasında həmrəylik yaratmaq məqsədilə dekabrın 5-də Bakıda bir araya gəliblər.

Beynəlxalq Könüllülər Gününə həsr olunan tədbirdə Formula-1 Azərbaycan Qran-prisi, «Bakı-2017» IV İslam Həmrəylik Oyunları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi («ASAN xidmət») və «BİR» Tələbə-Könüllü Proqramını təmsil edən 200-dən çox fəal könüllü iştirak edib.

«ASAN School» könüllülük məktəbinin rəhbəri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin insan resursları və təlim şöbəsi müdirinin müavini Cahangir Hacıyev şəxsi inkişafa nail olmaq istəyən gəncləri könüllülük fəaliyyətinə qoşulmağa dəvət edib. Bildirib ki, şəxsi inkişafa gedən yol könüllülükdən keçir. Bütün gəncləri öz karyeralarını daha sağlam təməllərdə qurmaq üçün könüllülük fəaliyyətinin əsas iştirakçıları olmağa çağırıram.

«BİR» Tələbə-Könüllü Proqramının meneceri Tural Abdullazadə qeyd edib ki, tələbə-könüllülərin fəaliyyəti yalnız öz gələcəkləri üçün deyil, həm də bütün Azərbaycanın gələcəyi üçün atılmış addımdır. «BİR» Tələbə-Könüllü Proqramı bu addımları dəstəkləmək və istiqamətləndirmək kimi məsuliyyəti işi öz üzərinə götürüb.

# Səmədov «Spartak»a keçir



Rusiyanın «Lokomotiv» klubunun futbolçusu Aleksandr Səmədov karyerasını Moskvanın digər klubu «Spartak»da davam etdirəcək. 32 yaşlı Azərbaycan əsilli yarımmüdafiəçi ilə 2 il yarımlıq müqavilə imzalanması nəzərdə tutulub. Yaxın vaxtlarda bağlanacağı gözlənilən müqavilənin şərtlərinə əsasən, A.Səmədov ilinə 1.8 milyon avro gəlir əldə edəcək.

Xatırladaq ki, «dəmiryolçular»ın baş məşqçisi Yuri Syomin A.Səmədovu əvəzedici heyətə göndərib.

## mozaika

texnologiya

# «Ağıllı ev»



«Amazon» şirkəti tərəfindən «ağıllı ev» üçün təqdim edilmiş yeni qurğular gündəlik tələbat məhsullarının vaxtında təmin edilməsinə nəzarət edəcək.

Bu ilin yanvarında istifadəyə verilmiş «Amazon Dash Replenishment» layihəsi əvvəllər «ağıllı» düymələrdən istifadəyə əsaslanırdı. Həmin düymələrə toxunduqda internet mağazasından zəruri məhsul sifariş edilirdi. Bir düymə yalnız bir konkret məhsul üçün proqramlaşdırılmışdı. İndi isə şirkət məhsulların internet üzərindən sifarişini avtomatlaşdırmağa dair qərar verib.

«Amazon» tərəfindən təqdim edilmiş yeni qurğular evdə zəruri məhsulların ehtiyatına müstəqil nəzarət edir və çatışmayan avadanlıqları sifariş edə bilir. Şirkət yeni xidmətini işə salmaq üçün «Whirpool», «Samsung», «Bosch» və «Purell» kimi partnyorlarla işgüzar olaqələr qurub. Təqdim edilmiş «WePlenish» adlı qurğu istehlak vərdişlərini, məhsulların anbar otağını və ya yeşikdə yerləşməsini araşdırır və bundan sonra zəruri məhsulların mövcudluğunu izləməyə başlayır. Cihaz, həmçinin, çatışmayan məhsulları müstəqil şəkildə sifariş edə bilir. «GeniCan» adlı qurğu zibil çəninə qoşulur və atılmış məhsulların ştrix kodunu skan edir, bundan sonra isə alınması lazım olan zəruri məhsulların siyahısını tərtib edir.

# Su ilə işləyən ilk kompüter

ABŞ mühəndisləri elektrik əvəzinə su ilə işləyən kompüter ixtira ediblər. Burada kompüterin işləməsi üçün suyun çəkisi əsas götürülür, elektrik enerjisindən istifadəyə ehtiyac qalmır. Kompüterin iş prinsipi elektromaqnit dalğalarının təsiri nəticəsində su damcılarının hərəkətinə əsaslanır. Qurğu hələ ki, məhdud imkanlara malikdir və ilkin mərhələdə yalnız texniki xarakterli sadə əmrləri yerinə yetirəcək.

Alimlər bildirirlər ki, bir il sonra onlar kompüterləşdirmə sahəsinin ən ciddi tələblərinə uyğun olan yeni layihə təqdim etməyə hazırlaşırlar. Gələcəkdə «su kompüterlərindən» istifadə ekologiya problemlərini minimuma endirməyə imkan verəcək.

fauna

# Bəbirlərin sayı artır

Hirkan Milli Parkı ərazisində 2016-cı ilin payız aylarında ana bəbirin 2 balası ilə fotoşəkli qeydə alınıb. Fotoları Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və IDEA İctimai Birliyinin Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) dəstəyi ilə bəbirlərin populyasiyasının bərpası üçün keçirdiyi layihə çərçivəsində quraşdırılmış fototələlər vasitəsilə əldə etmək mümkün olub.

Hirkan Milli Parkında bəbirlərin əsas qidasını yabanı donuz, cüyür və digər məməlilər (çaqqal, porsuq, tirəndazlar və s.) təşkil edir. Parkda bəbirlərin təbii artımı faktoloji olaraq ilk dəfə sübut edilib. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası ərazisində Həsən Əliyev adına Zəngəzur Milli Parkında da bəbir ailəsi 3 balası ilə müşahidə olunub. Zəngəzur Milli Parkı yaradıldıqdan sonra ərazidə bəbirlərin əsas qidası hesab olan bezoar keçilərinin sayının bərpa olunması, nadir və nəsli kəsilməkdə olan yırtıcı növlərin sayına müsbət təsir edib. Park ərazisindəki güclü mühafizə rejimi və bol qida mənbəyi 3 balanın böyüməsinə şərait yaradıb.

Son bir neçə ildə artıq dəfələrlə qeydə alınan nadir fauna növlərinin görüntüləri faktı ölkə başçısının ekoloji şəraitin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi sahəsində həyata keçirdiyi ardıcıl siyasətin məntiqi nəticəsi, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA beynəlxalq ekologiya kampaniyasının təşəbbüskarı Leyla Əliyevanın Qafqazda nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş 5 fauna növünün (ayı, canavar, ceyran, qartal və bəbir) qorunmasını əhatə edən «Böyük beşlik» proqramı çərçivəsində gördüyü işlərin bəhrəsidir. Eyni zamanda, xüsusi mühafizə olunan təbiət ərazilərində heyvanat aləminin mühafizəsi tədbirlərinin gücləndirilməsindən, intensiv ekoloji maarifləndirmə işlərinin aparılmasından və nəticə etibarilə bəbirin yaşaması, çoxalması, onun qida obyektləri olan iridırnaqlı heyvanların sayının artması üçün vacib olan təhlükəsiz şəraitdən xəbər verir.






ELAN

«Vergilər» qəzetinə
2017-ci il üçün
abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.

Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


tam ciddi

# Astmanın qarşısını alan yeni vasitə

Nobel mükafatı laureatlarından biri, mikrobiologiya sahəsində professor Barri Marşall qida allergiyasının və bronxial astmanın qarşısını alan preparat hazırlayıb. Dərman insanın immun sisteminə təsir göstərir, fəallığı ifrat həddə çatanda onu sakitləşdirir.

Alimin sözlərinə görə, bu preparat qastrit və xoranın inkişafını oyadan helikobakter bakteriyalarının öyrənilməsi üzrə əvvəlki tədqiqatın bəhrəsidir. Bu bakteriya növü mədədəki yerli immuniteti zəiflədir və çoxalma üçün şərait yaradır. Oxşar kimyəvi mexanizmdən istifadə edən Marşall immuniteti sıradan çıxaran preparat yarada bilib. Bu, qida allergiyası və bronxial astması olan insanların həyatını xeyli yaxşılaşdırmağa imkan verəcək. Hazırda dərman toz şəklindədir, onu qida və içkilərə əlavə etmək olar. Alim indidən yeni vasitənin səmərəli olacağına əmindir, lakin bu dərman birləşməsinin təhlükəsizliyini yoxlamaq üçün bir neçə il tələb olunur.

**Müdriklər deyib ki...**



*«İnsanın siması nə qədər ciddi olarsa, ondakı təbəssüm də bir o qədər gözəl görünər».*
*F.D.Şatobrian (1768-1848)*